AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

25 MAY 2019-cu il ŞƏNBƏ № 114 (6441) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## SƏMİMİ TƏBRİKLƏR

### Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

28 May - Respublika Günü münasibətilə Sizi və Azərbaycan xalqını Amerika xalqı adından və şəxsən öz adımdan təbrik edirəm. 1918-ci ildə həmin gün Azərbaycanın müstəqilliyi elan olunub və Azərbaycan Xalq Cümhuriyyəti yaradılıb. Yüz ildən artıq bir vaxt keçdikdən sonra Amerika Birləşmiş Ştatları bütün azərbaycanlılarla birlikdə bu nailiyyətləri qeyd etməkdən məmnundur.

Dövlətlərimiz arasında bir çox ortaq maraqlar üzərində qurulmuş güclü tərəfdaşlıq mövcuddur. Azərbaycanın beynəlxalq təhlükəsizliyə verdiyi töhfələri və Cənub Qaz Dəhlizi təşəbbüsünü irəli sürməklə Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsində Sizin liderliyinizi dəyərləndirirəm. Azərbaycanda islahatlar istiqamətində, xüsusilə də qanunun aliliyi sahəsində Azərbaycan xalqının mənafeyinə xidmət edəcək və əməkdaşlığımızın dərinləşməsi üçün imkanlar yaradacaq bütün addımları alqışlayıram. Həmçinin Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə və dayanıqlı həlli istiqamətində ATƏT-in Minsk qrupu prosesində Sizin şəxsi iştirakınızı təqdir edirik.

Tərəfdaşlığımızın gələcək illərdə də inkişaf etməsini səmimiyyətlə arzulayıram.

Xahiş edirəm bu əlamətdar ildönümü münasibətilə bir daha təbriklərimi və ən xoş arzularımı qəbul edəsiniz.

*Hörmətlə,*

**Donald Tramp**
**Amerika Birləşmiş Ştatlarının Prezidenti**

### Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizə səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq hissi duyuram.

Sizə xoşbəxtlik, ölkənizin xalqına isə rifah arzulayıram.

**Naruhito**
**Yaponiyanın İmperatoru**

### Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə ən səmimi təbriklərimi, ölkənizin və xalqınızın rifahı üçün ürəkdən gələn arzularımı qəbul etməyinizi xahiş edirəm.

Bu xoş fürsətdən istifadə edərək, Bolqarıstan Respublikasının Azərbaycan Respublikası ilə strateji əməkdaşlıq əlaqələrinin davamlı olmasına marağını bir daha təsdiq etmək istərdim.

Əminəm ki, dövlətlərimiz arasındakı əməkdaşlığın inkişafı yüksələn xətlə davam edəcəkdir. Çünki bu münasibətlər sabit zəminə - xalqlarımız arasındakı dostluq əlaqələrinə əsaslanır.

Hörmətli cənab Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Rumen Radev**
**Bolqarıstan Respublikasının Prezidenti**

### Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu.

Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Sizə və Sizin şəxsinizdə bütün qardaş Azərbaycan xalqına Türkmənistan xalqı və hökuməti adından, şəxsən öz adımdan səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Biz Türkmənistanda Azərbaycan Respublikası ilə mehriban qonşuluq, hörmət və qarşılıqlı dəstək prinsiplərinə əsaslanan münasibətləri yüksək qiymətləndiririk. Qəti əminəm ki, Türkmənistan-Azərbaycan münasibətləri qardaş ölkələrimizin və xalqlarımızın rifahı naminə bundan sonra da qarşılıqlı əməkdaşlıq ruhunda durmadan inkişaf edəcək və möhkəmlənəcək.

Hörmətli İlham Heydər oğlu, bu xoş fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı və səadət, qardaş Azərbaycan xalqına isə sülh, firavanlıq və tərəqqi diləyirəm.

*Dərin hörmətlə,*

**Qurbanqulu Berdiməhəmmədov**
**Türkmənistanın Prezidenti**

## Prezident İlham Əliyev Rusiyanın Əmək və Sosial Müdafiə nazirini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 24-də Rusiya Federasiyasının Əmək və Sosial Müdafiə naziri Maksim Topilini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Azərbaycan ilə Rusiya arasında strateji tərəfdaşlığa əsaslanan ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, sosial təminat sahəsində əlaqələr, təcrübə mübadiləsi məsələləri müzakirə edildi.

Görüşdə Rusiyada və Azərbaycanda sosial sahənin müxtəlif istiqamətləri ilə bağlı həyata keçirilən islahatlardan danışıldı, təcrübə mübadiləsinin aparılması üçün yaxşı imkanların olduğu qeyd edildi. Eyni zamanda, Maksim Topilinin səfəri zamanı müvafiq nazirliklər arasında imzalanacaq sazişin əhəmiyyətinə toxunuldu.

Söhbət zamanı əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

**AZƏRTAC**



## İordaniyanın Kralı Əlahəzrət II Abdullah ibn Al Hüseynə

Əlahəzrət,

Əziz Qardaşım,

İordaniya Haşimilər Krallığının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş İordaniya xalqına daim sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 22 may 2019-cu il.**

# Müqəddəs Ramazan ayı münasibətilə iftar mərasimi keçirilib

## *Prezident İlham Əliyev mərasimdə iştirak edib*



**Xəbər verdiyimiz kimi, mayın 23-də Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə müqəddəs Ramazan ayı münasibətilə öz iqamətgahında iftar süfrəsi açıb.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iftar mərasimində iştirak edib.

İftar mərasimi "Qurani-Kərim"dən ayələrin və Ramazan duasının oxunması ilə başladı.

**Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür PAŞAZADƏ mərasim iştirakçılarını salamlayaraq dedi:**

- Bismillahir-rəhmanir-rəhim.

Möhtərəm cənab Prezident İlham Əliyev.

Dəyərli qonaqlar.

Allah-Təalanın mübarək Ramazan ayının iftar süfrəsində Sizləri salamlayır, qonaqlarımıza, xüsusən dövlətimizin başçısı, möhtərəm Prezidentimiz İlham Əliyev cənablarına məclisimizdə iştirak etdiyinə görə Azərbaycan dindarları adından və şəxsən öz adımdan salamdualarımı və dərin minnətdarlığımı bildirirəm. Burada iştirak edən dəyərli din və dövlət xadimlərinə, dini konfessiya rəhbərlərinə, deputatlara, xarici ölkələrin nümayəndələrinə təşəkkür edirəm.

Qurani-Kərimin nazil olduğu, duaların qəbul edildiyi mübarək Ramazan ayında iftar mərasimində Sizinlə görüşmək böyük dəyər kəsb edən əlamətdar ənənəyə çevrilib. Bu qardaşlıq məclisini bizlərə böyük insan, dahi dövlət xadimi, mənim unudulmaz, əziz qardaşım ulu öndər Heydər Əliyev əmanət edib.

Hər il biz Heydər Əliyev şəxsiyyətinin dəyər və miqyasını, ucalıq və müdriklik zirvəsini bir daha kəşf edir, əziz xatirəsini böyük ehtiramla yad edirik. Ulu Öndər bizə müstəqil dövlət, möhkəm din-dövlət münasibətləri, nadir multikultural mədəniyyət nümunəsini əmanət edib. Xalqımıza, dövlətimizə müdrik rəhbər bəxş etmiş dahi Heydər Əliyevə və möhtərəm Zərifə xanıma Allah rəhmət eləsin, ruhları şad olsun.

Zati-aliləri, Azərbaycan torpağına qədəm basan hər kəsin şahidi olduğu tərəqqi və uğurların təməlində Sizin - dövlətimizin başçısının fəaliyyəti və müdrik siyasəti durur. Sizin həyata keçirdiyiniz siyasətin yaşam gücü dövlət - xalq birliyində, Prezident - vətəndaş həmrəyliyindədir. Bu, həm siyasi, həm mənəvi baxımdan ən düzgün yoldur.



Azərbaycan tarixən dinlərarası tolerantlıq və multikulturalizm mühitinin təşəkkül tapmasına böyük önəm verib. Mədəniyyətlərarası əməkdaşlığa dair onillik tarixə malik "Bakı Prosesi"nin müəllifi məhz dövlətimizin başçısı möhtərəm İlham Əliyevdir. Azərbaycanın Birinci vitse-prezidenti möhtərəm Mehriban xanım Əliyevanın ölkəmizdə və beynəlxalq aləmdə genişmiqyaslı fəaliyyəti, milli-mənəvi irsimizi yüksək səviyyədə təbliğ etməsi, ümumbəşəri dəyərlərə diqqəti və himayəsi Azərbaycanın bu istiqamətdə söz sahibinə çevrilməsinə xidmət edir, dünyaya təqdim olunan Azərbaycan modeli sivilizasiyalararası dialoq, dinlər və mədəniyyətlərarası əməkdaşlığın inkişafına öz töhfəsini verir.

Möhtərəm cənab Prezident, biz Sizin dünya səviyyəsində qəbul olunan qlobal ideyalarınızdan ilham alaraq bir çox beynəlxalq tribunalarda Azərbaycanın multikulturalizm və tolerantlıq modelini böyük qürurla təqdim edirik.

Zati-alinizin xeyir-duası və təşəbbüsü ilə Qafqaz Müsəlmanları İdarəsinin nəzdində yaradılmış Bakı Beynəlxalq Dinlər və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin məramı nadir multikulturalizm modelinin yaradılmasına və inkişafına dair qlobal ideyalarınızı təbliğ etməkdir. Məhz bu məramla, İnşallah, bu ilin iyununda Mərkəzimiz tərəfindən BMT-nin Cenevrə İnsan Haqları və Qlobal Dialoq Mərkəzinin, habelə Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin (KAICIID) həmtəşkilatçılığı, Azərbaycanın Avstriyadakı səfirliyinin, Avstriya dövlətinin ali dəstəyi və iştirakı ilə Vyanada 10-dan artıq beynəlxalq təşkilatın, 40-a yaxın ölkənin 300-ə yaxın din və dövlət nümayəndəsinin, elm və ictimaiyyət xadiminin iştirak edəcəyi beynəlxalq konfrans keçiriləcəkdir.

Dünyanın bir çox ölkələrində mənəvi dəyərlərə qarşı savaş açıldığı, islamofobiya, antisemitizm zəminində təqiblərin, terrorun, ekstremizm və radikallığın artdığı mürəkkəb zamanda müxtəlif qitə nümayəndələrinin, din və mədəniyyət təmsilçilərinin Azərbaycan Prezidentinin elan etdiyi multikulturalizm, İslam həmrəyliyi kimi qlobal əhəmiyyətli ideyalar ətrafında bir araya gəlməsi dövlətimizin uğuru və Sizin siyasətinizin təntənəsidir.

**(davamı 2-ci səhifədə)**

# Müqəddəs Ramazan ayı münasibətilə iftar mərasimi keçirilib

## Prezident İlham Əliyev mərasimdə iştirak edib





(əvvəli 1-ci səhifədə)

Bu gün Azərbaycan iqtisadi, siyasi, mədəni sahələrdə liderliyi ilə yanaşı, dünya çapında dini-mənəvi dəyərlərin inkişafına böyük töhfələr verən multikulturalizm mərkəzi kimi tanınmaqdadır. Beynəlxalq ictimaiyyəti narahat edən problemlərin həlli yönündə dünyanın tanınmış dini liderləri, ictimai-siyasi xadimləri arasında səmərəli fikir mübadiləsi üçün Azərbaycanda dövlət tərəfindən hər cür şərait yaradılmışdır. Biz Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsi ilə əməkdaşlıq çərçivəsində Zati-alinizin irəli sürdüyü istiqamətlər yönündə yeni əməli layihələr üzərində işləyirik.

Fərəhləndirici haldır ki, ölkəmiz 2010-cu ildə dünya dini liderlərinin Bakıda keçirilmiş birinci Sammitinin davamı olaraq sivilizasiyalararası dialoqun inkişafına daha bir töhfə verməyə hazırlaşır. Zati-alinizin Dünya Dini Liderlərinin II Bakı Sammitinin keçirilməsi barədə Sərəncamı, heç şübhəsiz, tarixi bir qərar oldu. Müxtəlif dini konfessiyalar arasında əməkdaşlığın genişlənməsinə, qarşılıqlı etimad mühitinin yaradılması işinə önəmli töhfə olacaq bu beynəlxalq tədbirin dəyərini zaman və dünya ictimaiyyəti verəcəkdir.

Zati-aliləri, Azərbaycandakı din-dövlət münasibətlərinin yüksək səviyyəsinin təmini istiqamətində əməli addımlarınız, milli-mədəni irsin dirçəlişinə göstərdiyiniz maddi və mənəvi yardım Ulu Öndərin Bibiheybətdən başlatdığı ali mənəviyyat yoluna sadiqliyinizi hər zaman əməli səylərinizlə nümayiş etdirirsiniz.

Ali himayənizi heç vaxt əsirgəmədiyiniz, xalqımız üçün müqəddəs məkan sayılan Təzəpir məscidinin ətrafında aparılan abadlaşdırma işləri, genişləndirilən ərazidə salınan möhtəşəm park, məscidin ilkin tarixi layihəsinə uyğun yenidən qurulması barədə iradəniz - bütün bunlar milli-mənəvi dəyərlərimizə, tariximizə olan yüksək qayğının təzahürü, xalqımıza böyük hədiyyədir. Zati-alinizin mənəvi irsimizə sahib çıxaraq XX əsrdə Vladiqafqazda azərbaycanlı xeyriyyəçi Muxtarov tərəfindən inşa edilmiş məscidi tam bərpa etdirməniz isə bütün Qafqaz bölgəsi müsəlmanlarına, orada yaşayan soydaşlarımıza böyük hədiyyədir.

Möhtərəm cənab Prezident, Zati-alinizə xas olan yüksək mənəvi xüsusiyyətlərdən biri də odur ki, Siz təkcə İslamın deyil, bütün dinlərin dini-mədəni irs nümunələrinə sahib çıxaraq, ölkəmizdəki, həmçinin ölkə xaricindəki istər xristian, istər yəhudi məbədlərinə eyni dərəcədə diqqət və himayə göstərirsiniz.

Peyğəmbərimiz Məhəmməd Salavatullahın hədisində buyurulur ki, insanların ən xeyirlisi xalq üçün daha faydalı olanıdır. Zati-aliləri, Azərbaycanın iqtisadi qüdrətinin artırılması yönündə səyləriniz, beynəlxalq əhəmiyyətli enerji və nəqliyyat layihələrində fəal iştirakınız, sosial layihələrə verdiyiniz dəstək xalqımızın rifahına, dövlətimizin mənafelərinə xidmət edir. Siz və Mehriban xanım bütün vətəndaşlara həyatın ən çətin məqamlarında - təbii fəlakətlərdə, yanğınlarda, baş verən faciələrdə yüksək insani dəyər verir, onların problemlərinə diqqətlə yanaşırsınız. Dünyanın inkişaf etmiş dövlətlərinin miqrant böhranını aradan qaldıra bilmədiyi bir dövrdə Siz, möhtərəm cənab Prezident, Azərbaycanın qaçqın və məcburi köçkünləri üçün böyük qayıdış planları həyata keçirirsiniz. Cocuq Mərcanlıda Zati-alinizin inşa etdirdiyi məscidin, aparılan quruculuq işlərinin mənəvi önəmi xalqımız üçün sözlə ifadə olunmayacaq qədər böyükdür.

Ölkəmizdə həyatın bütün sahələrində gerçəkləşdirdiyiniz islahatlar əsl liderə xas əzəmət və siyasi qüdrət nümunəsidir.

Zati-aliləri, qədirbilən xalqımız Sizin siyasətinizin dövlətimizin uğurlu gələcəyinə xidmət etdiyindən əmindir. Lakin bizi istəməyən, gözü götürməyən bədxah qüvvələr Azərbaycanı bu qədər inkişaf etmiş gördükcə, böhtan və iftiralarla xalq-dövlət birliyini pozmağa çalışırlar. Təəssüf ki, bədxah qüvvələr Azərbaycana qarşı mübarizələrində bəzən soydaşlarımızdan da istifadə etməyə çalışırlar. Şeyxülislam olaraq bildirmək istəyirəm ki, doğru yola qədəm qoysunlar, xalqımızın, dövlətimizin mənafelərini hər şeydən uca tutsunlar.

Bu yaxınlarda 10 milyonuncu vətəndaşımızın dünyaya gəlməsi gündən-günə geriləyən, maddi və mənəvi iflasa uğrayan, demoqrafik böhran yaşayan Ermənistan üçün ağır zərbədir. Ordumuzun artan qüdrəti, insanlarımızın Sizə sədaqəti bədxahları narahat edir, hətta dini zəmində qarşıdurma yaratmaq, məzhəb ayrı-seçkiliyi salmaq niyyətində olan daxili və xarici qüvvələr də yox deyildir. Lakin bu cür insanlar heç nəyə nail olmayacaqlar. Allahın köməyi və Azərbaycan xalqının dəstəyi həmişə Sizinlədir, möhtərəm cənab Prezident! Sizi əmin etmək istəyirəm ki, apardığınız siyasi xəttin qələbəsi yolunda hər zaman Sizin yanınızdayıq. Biz dindarlar Sizi dövlət rəhbəri kimi Məkkədə - müqəddəs məkanda seçmişik, xeyir-dualar vermişik və seçimimizə sadiqik. Allah-Təala hər zaman haqqın tərəfindədir.



Zati-aliləri, 70 illik yubileyim və Şeyxülislamlıq fəaliyyətimin 40 illiyi münasibətilə verdiyiniz ali qərar və sərəncamınızla cənabınıza xas olan böyüklük nümayiş etdirərək, şəxsimə, Azərbaycan xalqı, dövlətçiliyimiz, müqəddəs dinimiz yolunda xidmətlərimə böyük dəyər verdiniz. Şeyxülislam olaraq 40 il ərzində dini mərkəzimizi ulu öndər Heydər Əliyevin xeyir-duası ilə onun əmanəti kimi saxlamağa, cənab Prezident, Sizin dəstəyinizlə dünyanın tanınmış dini təşkilatı səviyyəsinə qaldırmağa nail olmuşuq. Bu illər ərzində idarəmizə, şəxsimə olan hörmət və diqqətiniz, özəl münasibətiniz, fəaliyyətim barədə dəyərli fikirləriniz mənim üçün ən qiymətli hədiyyə olubdur. Zati-alinizin məni dost, qardaş adlandırmasını özüm üçün ən böyük mükafat hesab edirəm və bu yüksək etimadınızla fəxr edirəm. Hər zaman, hər yerdə qürurla deyirəm ki, harada dövlət və din birliyi varsa, orada dövlətin və xalqın siyasi, iqtisadi və mənəvi rifahı üçün təminat vardır, Heydər Əliyev yolunun davamı və Uca Yaradanımızın xeyir-duası vardır.

Möhtərəm cənab Prezident, bizim yeganə problemimiz, ağrılı yerimiz Dağlıq Qarabağ münaqişəsidir ki, onun da tezliklə Allahın köməyi və Ali Baş Komandanımızın əzmi, qətiyyəti sayəsində həllini tapacağına, torpaqlarımızın azad olunacağına əminik. Bu əziz gündə Vətən uğrunda canlarından keçən şəhidlərimizə Allahdan rəhmət diləyirik. Allah-Təala Sizin rəhbərliyinizlə müzəffər ordumuzun əzəli torpaqlarımıza zəfər bayrağı sancmasını görməyi bizlərə nəsib etsin, İnşallah! Bu müqəddəs və mübarək Ramazan ayında Zati-alinizə və möhtərəm ailənizə ən gözəl arzularımızı yetiririk. Uca Allah hər zaman Sizi qorusun, yardımçınız olsun.

Müqəddəs Ramazan ayında etdiyimiz dualar qəbul olar, İnşallah. Bu niyyətlə hamıya - dəvət olunan mötəbər qonaqlara, dini konfessiyaların möhtərəm başçılarına, diplomatik nümayəndələrə bir daha "Xoş gəlmisiniz!" deyir, Allahdan hər birinizə xeyir-dualar diləyirəm.

Allah-Təala Azərbaycanı hifz eləsin! Amin!

* * *

**Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu ALEKSANDR çıxış edərək dedi:**

- Hörmətli cənab Prezident.

Möhtərəm Şeyxülislam.

Hörmətli din xadimləri, xanımlar və cənablar.

Dini və milli ənənələrimizi yeniləmək və möhkəmləndirmək üçün Ramazan ayı günlərində bir yerə toplaşmaq əlamətdar ənənəyə çevrilib. Bu görüş Azərbaycanda yaşayan xalqların öz tarixi və dini köklərinə bağlılığının parlaq təsdiqi, milli mentalitetin, dövlətlə din arasında konstruktiv qarşılıqlı münasibətlərin əyani təzahürüdür. Bu əlamətdar günlərdə bütün Azərbaycanda, bütün şəhərlərdə və kəndlərdə ailələrdə, dostların və tanışların əhatəsində belə iftar süfrələri açılır. Bizim iştirak etdiyimiz bu iftar süfrəsi də ölkədə sabitliyin, xalq-iqtidar birliyinin, dinlərarası dialoqun yüksək səviyyəsinin və multikulturalizmin Azərbaycan modelinin uğurunun parlaq təsdiqi, cəmiyyətin inkişafının ümummilli lider Heydər Əliyev tərəfindən müəyyən edilmiş siyasi kursunun dəyişməzliyinin sübutudur. Azərbaycanın bütün iqtisadi, siyasi, ictimai, elmi və mədəni həyatı bu məcrada inkişaf edir. Bu baxımdan Azərbaycanın Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi, bu il 15 illiyini qeyd etdiyimiz Heydər Əliyev Fondunun fəaliyyətini xüsusi qeyd etmək istəyirəm. Cənab Prezidentlə birlikdə din xadimlərinin, hökumət nümayəndələrinin, Milli Məclisin deputatlarının, elm və mədəniyyət xadimlərinin, respublikada akkreditə olunmuş diplomatik missiya rəhbərlərinin iştirak etdikləri bugünkü iftar mərasimi də dini həyatın vəziyyətinin yüksək səviyyədə olmasının göstəricisidir. Bu, tolerantlıq ruhunun və ölkəmizin rəhbərliyinin yürütdüyü multikulturalizm siyasətinin çox güclü təzahürüdür.

Möhtərəm cənab Prezident, icazə verin, Sizi əmin edək ki, Azərbaycanın din xadimləri Azərbaycan Respublikasının rəhbəri vəzifəsində Sizin fəaliyyətinizə dərin ehtiramla yanaşır, Sizin yürütdüyünüz siyasi kursu səmimi dəstəkləyir, Sizin cansağlığınız və ümumi evimiz olan Azərbaycanın tərəqqisi üçün ürəkdən dua edirlər.

İcazə verin, Sizə Rus Pravoslav Kilsəsinin başçısı, Moskvanın və bütün Rusiyanın patriarxı zati-müqəddəsləri Kirillin fevral ayında ölkəmizə son səfəri zamanı ona göstərdiyiniz mehriban və səmimi qəbula görə onun dərin təşəkkürünü çatdırım.

Hamınızı Ramazan ayı münasibətilə təbrik edirəm.

* * *

**Azərbaycandakı Dağ Yəhudiləri Dini İcmasının rəhbəri Melih YEVDAYEV çıxış edərək dedi:**

- Möhtərəm prezident.

Şeyx həzrətləri.

Xanımlar və cənablar.

Bacılar və qardaşlar.

Bu müqəddəs Ramazan günlərində ənənəvi iftar süfrəsi arxasında hamınızı yəhudi xalqı adından salamlayıram. Qoy Allah-Təala hamınızı öz qanadı altına alaraq şər qüvvələrdən hifz etsin. Allah-Təala tutduğunuz orucların və etdiyiniz duaların əvəzində sizə cansağlığı, xoşbəxtlik, səadət, bol ruzi-bərəkət bəxş etsin.

Müqəddəs Ramazan ayını üç hissəyə bölmək olar: əvvəli rəhmət, ikincisi bağışlanma, sonu isə cənnətə doğru. Orucun mənası isə ucalmaq, yüksəlmək deməkdir. Adəm övladı öz iradəsi ilə nəfsinə qalib gəlirsə, həm öz gözündə, həm də Allah-Təalanın gözündə ucalaraq yüksəlir.

Bu gün Azərbaycanın sürətli inkişafını, uğurlu xarici və daxili siyasətini, o cümlədən dövlət və din münasibətlərinin səmərəli tənzimlənməsini şərtləndirən başlıca iki amil mövcuddur. Birincisi, Ulu Öndərin əsasını qoyduğu sağlam bünövrə, ikincisi isə ümummilli Liderin layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyevin həmin sağlam bünövrə üzərində həyata keçirdiyi uğurlu strategiyadır.

Biz qədirbilən Azərbaycan xalqı ilə birgə bugünkü Azərbaycana, bu əmin-amanlığa, bugünkü gücə, qüdrətə görə Ulu Öndərə minnətdarlıq edib qəni-qəni rəhmət diləyirik:

*Həmişə xalqına baş əydiyindən,*
*Ucaldın zamanın keşməkeşində.*
*Özün düşüncədə bir ümman ikən,*
*Özünü əritdin ümman içində.*

Ulu Öndər cəmiyyətimizdəki tolerantlıq və humanizm mühitinə görə xalqımızın yaddaşına borclu olduğumuzu dönə-dönə qeyd edirdi:

*Vətənə borcluyam mən,*
*Xalqıma borcluyam mən,*
*Bəlkə də bu dünyada,*
*Hamıya borcluyam mən.*

Möhtərəm Prezident, on beş ildən çoxdur ki, Siz bu siyasi xətti uğurla davam etdirirsiniz. Sizin böyük dərəcədə humanist, insanpərvər, Vətənini və xalqını sevən, bunu bütün dünyaya bəyan edən Prezident olmağınızla fəxr edir və qürur duyuruq:

*Üzündə müqəddəs Vətən qüruru,*
*Alnında mərd kişi ləyaqəti var.*
*Şəffaf gözlərində günəşin nuru,*
*Bir də sadəliyin tərəvəti var.*

Möhtərəm Prezident, müəyyən müddət idi ki, Azərbaycanda Yəhudi Mədəniyyət Mərkəzinin tikilməsini arzulayırdıq. Yəhudi Mədəniyyət Mərkəzinin tikilməsi üçün ayırdığınız torpaq sahəsinə görə Sizə Azərbaycanda yaşayan bütün yəhudilər, həmçinin bütün dünya yəhudiləri adından dərin minnətdarlığımızı bildiririk. Bu vaxta qədər bütün dünyada analoqu olmayan bir hal kimi bizə bəxş etdiyiniz sinaqoqla yanaşı, tikiləcək bu mədəniyyət mərkəzi də dünyada analoqu olmayan bir hal kimi tarixə düşəcəkdir:

*Arzu zirvə başındadır,*
*Onun min bir pilləsi var.*
*Hər arzunun neçə-neçə,*
*Böyük, kiçik çilləsi var.*

Möhtərəm Prezident, Allah-Təala bütün arzularınızı böyük və kiçik çillələrdən keçirərək çin etsin. Çünki Sizin arzularınız bizim arzularımızdır.

Möhtərəm Prezident, Azərbaycanda yaşayan yəhudilər həmişə olduğu kimi, respublikanın ictimai-siyasi həyatında fəal iştirak edirlər. Respublikamız mötəbər tədbirlərə ev sahibliyi edir. Həmin tədbirlərə dünyanın hər yerindən gələn çoxsaylı qonaqlar bizim həyat tərzimiz və fəaliyyətimizlə tanış olur, öz dövlətlərinə qayıdandan sonra Azərbaycanın bugünkü həqiqətlərindən danışırlar. Lakin bu, həmişə belə olmur. Bizim inamlı qələbələrimizdən qıcıqlanan bəzi üzdəniraq qonaqlar bugünkü sülh və əmin-amanlıq şəraitində yaşamağımızdan yazmaq əvəzinə ikili standartlara əl atırlar, doğru sözümüzü demirlər və bilmək istəmirlər ki:

*Doğru söz insanlığın görən gözüdür,*
*Doğru söz ədalətin, həqiqətin özüdür.*
*Müqəddəs ocağın közüdür düz söz,*
*Dahilər dilinin gücüdür düz söz.*

Biz bu yaxınlarda Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunovun 50 illiyini Şəhidlər xiyabanında və sonra Beynəlxalq Muğam Mərkəzində yüksək səviyyədə keçirdik. Bu tədbirin keçirilməsində, inanın Allaha, bütün respublika bizə kömək edirdi. Prezident Administrasiyası, Nazirlər Kabineti, şeyx həzrətləri, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi və aidiyyəti nazirliklər - Müdafiə, Mədəniyyət, Gənclər və İdman Nazirlikləri, bütün icra hakimiyyətləri bizə dəstək oldular.

Möhtərəm Prezident, əlbəttə ki, bütün bunlar Azərbaycanda mümkündür:

*Bir süfrənin başında,*
*Nemətimiz bərabər.*
*Hüququmuz bərabər,*
*Hörmətimiz bərabər.*
*Bir məclisdə sözümüz,*
*söhbətimiz bərabər.*
*Ana yurda borcumuz,*
*xidmətimiz bərabər.*
*Mübarəkdir bir eşqin,*
*Bir amalın bayramı.*
*Etibarın, vəfanın,*
*Dəyanətin bayramı.*



Bu əziz günlərdə dünyasını dəyişənlərimizə və cəmi şəhidlərimizə Allah-Təala qəni-qəni rəhmət etsin. Qoy onların qəbirləri nurla dolsun. Hər bir qəhrəman Vətənin şöhrəti və yaraşığıdır. Məzarda olsalar belə, həmişə həyatdadırlar. Əlbəttə ki, atalarımız, analarımız dünyalarını dəyişiblər:

*Yenə gəldim ziyarətə,*
*Öpdüm mərmər daşı, ata.*
*Sifətinə ləkə saldı,*
*Gözlərimin yaşı, ata.*
*Məndə oğul dəyanəti,*
*Səndə qəbir sükunəti,*
*Baxışların məğrur, qəti,*
*Mərd kişi idin, kişi ata.*
*Qartal vüqarlısan, dağ əzəmətli,*
*Ata qeyrətlisən, bacı şəfqətli.*
*Ay mənim qeydimə qalanım ana,*
*Həkimim, təbibim, loğmanım ana.*
*Torpaq da anasız qalmasın deyə,*
*Torpağın qoynuna köçür analar.*

Ona görə də Allah-Təala onlara qəni-qəni rəhmət etsin. Allah-Təala onların qəbirlərini nurla doldursun.

*Vətəni sevirəm deyən çox olar,*
*Deməyə nə var ki, dil yorulmasa.*
*Vətən də mənim tək ölər, yox olar,*
*Vətənin yolunda ölən olmasa.*

Ona görə də bu gün biz cəmi şəhidlərimizi yad edirik, onlar həmişə bizim qəlbimizdə, bizim ürəyimizdədirlər.

Bir arzumuz da var ki, deyir:

*Arzumu görmüşəm mən arzularda,*
*Arzumu yazmışam ayna sularda.*
*Dərdi tək çəkirəm çətində, darda,*
*Sevinci hamı ilə bölən olmuşam.*

Bizim ən hündür bayrağımız Qarabağ göylərində dalğalananda mən bütün sevincimi, bütün xalqın sevincini Sizinlə bölüşəcəyəm.

Möhtərəm Şeyx həzrətləri:

*İlham qonağındır ellər var olsun,*
*İlhama hər zaman Allah yar olsun,*
*Evində həmişə toy-bayram olsun.*
*Qoy bilsinlər qızıldır, incidir, ləldir İlhamın.*

Sağ olun.

* * *

**Katolik Kilsəsinin Azərbaycandakı yepiskopu Vladimir FEKETE çıxış edərək dedi:**

- Zati aliləri, cənab Prezident İlham Əliyev.

Möhtərəm Şeyxülislam Allahşükür Paşazadə.

Hörmətli xanımlar və cənablar.

Şadam ki, Ramazan ayı ilə əlaqədar bu il də biz hörmətli Şeyxin evində bir yerə toplaşmışıq. İcazə verin, mən, ilk növbədə, ev sahibi kimi ona burada artıq dəfələrlə hiss etdiyimiz qonaqpərvərliyə görə dərin minnətdarlığımı bildirim. Hörmətli Şeyxülislam, mən Azərbaycan katolikləri adından sizə xüsusilə bu il - sizin əlamətdar 70 illik yubileyiniz münasibətilə ən xoş arzularımı çatdırmaq istəyirəm. Ulu Tanrı sizi, ailənizi qorusun və sizə kömək etsin ki, həyatınız, zəhmətiniz gələcəkdə də dini dözümlülük ideyalarının möhkəmlənməsinə və bu gözəl ölkənin bütün sakinlərinin əməkdaşlığına kömək etsin.

Hörmətli cənab Prezident, mən Azərbaycan katolikləri adından bu dövlətin başçısı kimi Sizə təşəkkürümü bildirmək istəyirəm. Burada və digər yerlərdə dəfələrlə səsləndiyi kimi, Siz bütün bəşəriyyətə çox böyük töhfə verən tolerantlıq və multikulturalizm proseslərinin qarantısınız. Sizin rəhbərliyinizlə həyata keçirilən bu siyasət həm ölkəmizdə uğurla inkişaf edir, həm də bütün dünyada müsbət əks-səda doğurur.

Bu ilin fevralında Papa Fransisk Əbu-Dabiyə səfərə gəlmişdi. Bu səfərin ən mühüm hadisələrindən biri bəşəri qardaşlıq haqqında sənədin imzalanması oldu. Həmin sənəddə Papa və "Əl-Əhzar"ın ali imamı əl-Tayib birlikdə bütün insanları qardaş olmağa, bir-birinə hörmət etməyə çağırdıqlarını bəyan edirlər. Sənəddə deyilir: "Bizim zəmanəmizdə bəziləri dinə münaqişə mənbəyi kimi baxır. Biz birlikdə İslamla Xristianlıq arasında görüşün mümkünlüyünün daha bir aydın və qəti nümunəsini göstərdik. Göstərdik ki, bütün mədəni müxtəlifliyə və ənənələrin fərqliliyinə baxmayaraq, Xristian dünyası ilə İslam dünyası arasında hörmət və dialoq mümkündür. Həm Xristian dünyası, həm də İslam dünyası ümumi dəyərləri - həyatı, ailəni, dini hissləri, böyüklərə ehtiramı, gənclərin tərbiyəsini və s. dəyərləndirir və qoruyur".

Azərbaycanda olduğum müddətdə mən dəfələrlə Papanın həmin sənəddə ifadə olunan arzularının burada təcrübədə, gündəlik həyatda reallaşdığını müşahidə etmişəm. Mən azərbaycanlıların qonaqpərvərliyinə və səmimiliyinə, eləcə də onların tarixi səhvlərə və ədalətsizliyə qarşı qəhrəmancasına dözümlü və səbirli olmasına heyranam. Mən əminəm ki, bunların hamısı bütün bəşəriyyət üçün dəyərli töhfə olacaq. Mən indi də, qarşıdakı illərdə də Sizin rəhbərliyinizlə Azərbaycanın insanlar arasında sülhün, xoş münasibətlərin və əməkdaşlığın adası olaraq qalması, bütün şərəfli zəhmətkeş insanlar üçün kifayət qədər məkanın olduğu, öz vətəndaşlarının və burada yaşayanların hamısının azadlığını və ləyaqətini qoruyan ölkə kimi qalması üçün dua etmək və işləmək istəyirəm. Bizi yaradan qüdrətli Tanrı hamımıza, - öz düşüncəsinə görə bizi yerləşdirdiyi yerlərdə hər birimizə, - gələcək nəsillər üçün daha gözəl və fərəhli dünya qurmaqda kömək etsin.

Zati-aliləri, hörmətli Şeyxülislam, icazə verin, bir daha sizə ürəkdən möhkəm cansağlığı, Tanrının köməyini və bütün müsəlman qardaşlarımıza firavanlıq, inkişaf və tərəqqi arzulayım. Təşəkkür edirəm.

* * *

Dövlətimizin başçısı mərasimdə nitq söylədi.

**(davamı 3-cü səhifədə)**

# Müqəddəs Ramazan ayı münasibətilə iftar mərasimi keçirilib

## Prezident İlham Əliyev mərasimdə iştirak edib

## Prezident İlham Əliyevin nitqi



(əvvəli 2-ci səhifədə)

- Hörmətli Şeyx həzrətləri.
Hörmətli din xadimləri.
Xanımlar və cənablar.

Hər il olduğu kimi, mübarək Ramazan ayında Şeyx həzrətlərinin iftar süfrəsində görüşürük. Bu, gözəl ənənədir. Bu ənənə yaşayır və yaşayacaq. Bu, dövlət-din münasibətlərinin bariz nümunəsidir. Dövlət-din münasibətləri hər bir ölkə üçün xüsusi əhəmiyyətə malikdir və Azərbaycanda bu münasibətlər nümunəvi xarakter daşıyır.

Bu münasibətlərin təməlində ulu öndər Heydər Əliyev və Şeyx həzrətləri dayanırlar. Onların şəxsi dostluğu, bir-birilərinə olan hörməti dövlət-din münasibətlərinin inkişafına çox böyük təsir göstərmişdir. Mən onun şahidiyəm ki, Şeyx həzrətləri və ulu öndər Heydər Əliyev bir-birinə çox yaxın insanlar olmuşlar və onların xalq, Vətən qarşısında gördükləri işlər bugünkü Azərbaycanın uğurlu inkişafına şərait yaratmışdır.

1993-cü ilə qədər dövlət-din münasibətlərində müəyyən boşluqlar var idi. 1993-cü ildən sonra bu sahədə də bütün istiqamətlər üzrə işlər ən yüksək səviyyədə tənzimlənir. Mayın 10-da, Ulu Öndərin anadan olmasının 96-cı ildönümü günündə onun xalq, dövlət qarşısında gördüyü işlər haqqında danışdıq. Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləri var. Bugünkü müstəqil Azərbaycan onun əsəridir. Dövlətçiliyin əsaslarının qurulması, Azərbaycanın strateji inkişaf istiqamətlərinin müəyyən edilməsi məhz Heydər Əliyevin müdrikliyi və uzaqgörənliyi sayəsində mümkün olmuşdur.

Hörmətli Şeyx həzrətləri xalq və dövlət qarşısında böyük xidmətlər göstərir. Şeyx həzrətləri həm Azərbaycanda, həm Qafqazda, həm də dünyada böyük nüfuza malik görkəmli din xadimidir və Azərbaycanı dünyada öz dəyərlərinə sadiq, eyni zamanda, müasir, tolerant ölkə kimi təqdim edir. Onun çoxşaxəli beynəlxalq fəaliyyəti Azərbaycanı dünyaya tanıtdırır, Azərbaycan reallıqlarını dünya ictimaiyyətinə təqdim edir və Şeyx həzrətlərinin uğurlu fəaliyyəti ölkəmizi gücləndirir.

Ölkəmizdə milli həmrəylik, vətəndaş həmrəyliyi var. Konstitusiyaya görə din dövlətdən ayrı olsa da, əslində din və dövlət bir-birinin yanındadır. Bizim gücümüz birliyimizdədir. Bu gün Azərbaycanın uğurlu inkişafı dövlət-din münasibətlərinin uğurlu inkişafından böyük dərəcədə asılıdır.

Dünyada vəziyyət gərginləşir. Həm bölgəmizdə, həm dünyada yeni toqquşmalar, yeni münaqişə ocaqları yaranır, yeni risklər, təhdidlər meydana çıxır. Dünyanın gələcəyi ilə bağlı, sabitliyin gələcəyi ilə bağlı müxtəlif fikirlər, fərziyyələr irəli sürülür. Bizim əsas vəzifəmiz Azərbaycanda sabitliyi qorumaq, Azərbaycan xalqının rifah halını yaxşılaşdırmaq və ölkəmizi mümkün olan risklərdən qorumaqdan ibarətdir. Son illər ərzində bu istiqamətdə böyük işlər görülüb. Azərbaycan inkişaf yolu ilə gedir. İnkişaf dinamikamız çox müsbətdir. Əminəm ki, gələcək illərdə aparılan dərin islahatlar sayəsində ölkəmizin uzunmüddətli, dayanıqlı inkişafı təmin ediləcəkdir.

Biz dərin milli-mənəvi təməl üzərində müasir dövlət qurmuşuq. İslam dəyərləri milli-mənəvi dəyərlərimizin ayrılmaz hissəsidir. Biz öz dinimizə bağlıyıq. Biz dünyada İslam mədəniyyətini təbliğ edirik. Dünyada çoxsaylı konfranslar, sərgilər, təqdimatlar keçirilir, Azərbaycan həqiqətləri, İslam mədəniyyətinin həqiqətləri dünya ictimaiyyətinə təqdim edilir. Biz İslamı olduğu kimi, sülh, mərhəmət dini kimi dünyaya təqdim edirik və bu fəaliyyəti bundan sonra da davam etdirəcəyik.

Müsəlman ölkələri ilə bizim ənənəvi dostluq-qardaşlıq əlaqələrimiz vardır. Bu, xarici siyasətimizdə prioritet istiqamətlərdən biridir. Azərbaycan bütün müsəlman ölkələri ilə sıx əlaqələr qura bilmişdir və beynəlxalq müstəvidə biz daim bir-birimizi dəstəkləyirik. Eyni zamanda, ikitərəfli formatda çox fəal əməkdaşlıq edirik. Bir neçə gün bundan əvvəl müsəlman ölkələrinin səfirləri ilə görüş əsnasında bu məsələlərlə bağlı fikir mübadiləsi apardıq.

Azərbaycan, eyni zamanda, İslam Əməkdaşlıq Təşkilatının fəal üzvüdür və bu təşkilat çərçivəsində İslam həmrəyliyinin möhkəmlənməsinə öz dəyərli töhfəsini verir. Ölkəmizdə İslam Əməkdaşlıq Təşkilatının xətti ilə bir çox tədbirlər keçirilir. İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanda İslam dəyərlərinin qorunması işində apardığımız siyasətə çox yüksək qiymət verir. Biz bundan sonra da təşkilat çərçivəsində İslam həmrəyliyinin möhkəmlənməsi işində öz səylərimizi davam etdirəcəyik. Onu da bildirməliyəm ki, 2016-cı ildə İslam Əməkdaşlıq Təşkilatı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi üzrə kontakt qrupu yaratmışdır və təşkilat bu münaqişə ilə bağlı bizim haqq işimizi daim dəstəkləyir.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinin bir yolu var - Azərbaycanın dünya birliyi tərəfindən tanınmış ərazi bütövlüyü bərpa edilməlidir. Dağlıq Qarabağ bizim tarixi, əzəli torpağımızdır. Biz bu həqiqətləri dünyaya çatdırırıq. Əfsuslar olsun ki, münaqişə başlanan zaman münaqişə ilə bağlı dünyada kifayət qədər məlumat yox idi. 1990-cı illərin əvvəllərində torpaqlarımız işğal altına düşmüşdür. Ölkəmizdə o vaxt yaşanan böhran, hərc-mərclik, xaos Ermənistana imkan verdi ki, bizim tarixi torpaqlarımızı zəbt etsin. O vaxt biz beynəlxalq təcriddə idik, öz səsimizi dünya ictimaiyyətinə çatdıra bilmirdik. Beləliklə, dünyada münaqişə ilə bağlı böyük dərəcədə təhrif edilmiş rəy formalaşdırılmışdı. Bizim müntəzəm səylərimiz nəticəsində artıq bütün dünya bilir ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir, tarixi torpağımızdır. Münaqişəyə dair çoxsaylı kitabların çap edilməsi, təqdimatların, konfransların keçirilməsi dünya ictimaiyyətinə münaqişə ilə bağlı həqiqətləri çatdırır.

Hər kəs görür ki, münaqişə ilə bağlı ikili standartlar mövcuddur. Necə ola bilər, dünyanın ali orqanı olan BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul edir, bu qətnamələrdə açıq-aydın deyilir ki, erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan çıxarılmalıdır və bu qətnamələr icra olunmur. Ona görə hesab edirəm ki, dünyada mövcud olan ikili standartlar ən böyük problemlərdən biridir. Münaqişənin həlli üçün biz səylərimizi davam etdirəcəyik. Biz iqtisadi gücümüzü artırırıq, siyasi çəkimiz artır, hərbi baxımdan Azərbaycan bu gün güclü ölkələr sırasındadır. Döyüş meydanında üstünlüyümüzü təmin etmişik. Vaxtilə işğal altına düşmüş torpaqların bir hissəsini azad etmişik. O torpaqlarda bu gün Azərbaycan bayrağı dalğalanır. İşğaldan azad edilmiş torpaqlarda Şuşa məscidinin bənzəri olan məscid tikilmişdir, qəsəbə salınmışdır, oraya həyat qayıtmışdır. Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı bu işğalla heç vaxt barışmayacaq. Bu gün dirçələn və inkişaf edən Cocuq Mərcanlı kəndi Azərbaycan xalqının əyilməz ruhunu təcəssüm etdirir. Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayıb və olmayacaq. Bir daha demək istəyirəm ki, bu münaqişə yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır.

Biz tarixi, dini abidələrimizi qoruyuruq və burada da dövlət və din bir yerdədir. Son illərdə yüzlərlə məscid tikilmiş və ya təmir edilmişdir. Onların arasında tarixi məscidlərimiz xüsusi yer tutur. Şeyx həzrətləri qeyd etdi, Təzəpir məscidinin ətrafında salınan möhtəşəm park həm şəhərə yeni nəfəs verəcək, yəni, 20 hektar ərazidə salınan yaşıllıqlar bu zonada iqlimin yaxşılaşmasına xidmət göstərəcək, insanların rahatlığı üçün imkanlar yaradacaq, eyni zamanda, Təzəpir məscidinin əzəmətli görkəmi artıq bütün vətəndaşlara açıq olacaq. Çünki vaxtilə Təzəpir məscidinin ətrafında tikilmiş binalar imkan vermirdi ki, biz onu uzaq məsafədən seyr edək. Digər məscidlərimizin əsaslı şəkildə bərpası bizim niyyətimizi, siyasətimizi göstərir. Bibiheybət, Əjdərbəy, Şamaxı Cümə məscidlərinin, "İmamzadə" tarixi-dini kompleksinin əsaslı şəkildə təmir edilməsi dövlət-din münasibətlərinin təzahürüdür. Heydər məscidinin tikintisi tarixi hadisədir.

Bildiyiniz kimi, keçən il prezident seçkilərindən sonra iştirak etdiyim birinci tədbir Hacı Cavad məscidinin yeni binasının açılışı olmuşdur. Bu da təsadüfi deyil. Mən seçkilərdən sonra istənilən yerə gedə bilərdim. Məhz Hacı Cavad məscidinin yeni binasının açılışını birinci növbədə qeyd etməyimiz dövlət-din münasibətlərimizə, İslam dininə göstərdiyimiz hörmətdir.

Ölkəmizdə dinlərarası münasibətlər ən yüksək səviyyədə tənzimlənir. Bu, artıq reallıqdır. Bütün dünya bu reallıqları bilir və qəbul edir. Bu gün Azərbaycan dünya miqyasında dinlərarası dialoqun aparılması üçün bir mərkəzə çevrilib. Təsadüfi deyil ki, çoxsaylı beynəlxalq tədbirlər məhz bizim təşəbbüsümüzlə ölkəmizdə keçirilir. Əgər biz bu təşəbbüsü göstərməsəydik, bu tədbirlər də keçirilməzdi.

Hörmətli Şeyx həzrətlərinin dediyi kimi, bu il Dünya Dini Liderlərinin II Zirvə Görüşü keçiriləcəkdir. Bu məsələ ilə bağlı qərar qəbul edildi. Şeyx həzrətlərinin yubileyi və fəaliyyətinin 40 illiyi dövlət səviyyəsində təntənəli şəkildə qeyd ediləcəkdir. Əminəm ki, Azərbaycan müasir, öz dini, milli köklərinə bağlı olan ölkə, eyni zamanda, tolerant və multikultural dəyərləri təbliğ edən dövlət kimi öz reallıqlarını dünyaya bir daha təqdim edəcək.

Azərbaycanda keçirilən çoxsaylı beynəlxalq tədbirlər həm ölkəmiz, həm daxildə gedən proseslər, həm də dünya üçün böyük məna daşıyır. Çünki Azərbaycan çoxmillətli, çoxkonfessiyalı ölkədir. Bu, bizim böyük sərvətimizdir. Azərbaycanda bütün xalqların, bütün dinlərin nümayəndələri mehribanlıq, əmin-amanlıq şəraitində yaşayır. Biz bir ailə kimi yaşayırıq və bizim gücümüz birliyimizdədir. Bu tədbirlərin dünya üçün də böyük əhəmiyyəti var. Çünki bu gün dünyada dinlərarası münasibətlərlə bağlı fərqli fikirlər var, yəni, birmənalı yanaşma yoxdur. Bəzi hallarda çox təhlükəli fikirlər səslənir, çox böyük fəsadlara gətirib çıxara biləcək addımlar atılır. Ona görə bizim təşəbbüslərimiz dünya üçün böyük əhəmiyyət daşıyır. Sonuncu böyük tədbir Mədəniyyətlərarası Dialoq Forumu idi. Bu Forum çərçivəsində çox önəmli məsələlər müzakirə edilmişdir və Azərbaycanın bu sahədəki müsbət rolu bir daha qeyd olunmuşdur. Biz bu sahədə öz səylərimizi davam etdirəcəyik. Bir daha demək istəyirəm ki, bu, bizim üçün lazımdır və bu, dünya üçün lazımdır. Çünki biz istəyirik ki, dünyada proseslər müsbət məcrada getsin, dini, milli zəmində qarşıdurma, anlaşılmazlıq olmasın, sülh olsun, bərabərlik olsun, ədalət olsun. Müqəddəs İslam dinimiz bunu tələb edir və biz dövlət olaraq bu istiqamətdə öz səylərimizi davam etdirəcəyik. Ölkəmizin uğurlu, dayanıqlı inkişafı təmin olunacaq, ölkə qarşısında duran vəzifələr icra edilir və ediləcəkdir, mövcud problemlərin həlli üçün çox aydın baxışlar, konkret proqramlar var və onlar icra edilir. Bu gün Azərbaycan reallıqları belədir ki, ölkəmiz inamla, nikbinliklə irəliyə gedir, nikbinliklə yaşayır. Ölkə qarşısında duran bütün problemlərin həlli üçün bizdə həm güclü siyasi iradə, həm də cəmiyyət tərəfindən böyük dəstək var.

Hörmətli mərasim iştirakçıları, mən hörmətli Şeyx həzrətlərinə, digər din xadimlərinə mənim haqqımda, ünvanıma deyilən bütün xoş sözlərə görə bir daha minnətdarlığımı bildirmək istəyirəm. Bütün dünya müsəlmanlarını Ramazan ayı münasibətilə təbrik etmək istəyirəm. Bütün dünya müsəlmanlarına sülh, əmin-amanlıq, rifah arzulayıram! Sağ olun.

* * *

Sonra iftar süfrəsi açıldı.

**AZƏRTAC**

## Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycanın dünyaya nümunə olan hazırkı mədəni müxtəliflik və yüksək tolerantlıq mühiti əsrlərdən bəri burada ayrı-ayrı xalqların və konfessiyaların nümayəndələrinin qarşılıqlı hörmət və əmin-amanlıq şəraitində dinc yanaşı yaşamalarının nəticəsidir. Cəmiyyətdə qarşılıqlı mənəvi zənginləşmə üçün davamlı zəmin yaratmış bu etnik rəngarəngliyin qorunub saxlanmasının müstəqil dövlətçiliyin əsaslarının daha da möhkəmləndirilməsi baxımından əhəmiyyətini nəzərə alaraq və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə mövcud dini konfessiyaların fəaliyyətinin dəstəklənməsini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərmək üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Qafqaz Müsəlmanları İdarəsinə 2,0 (iki) milyon manat, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumuna 350,0 (üç yüz əlli) min manat, Bakı şəhəri Dağ yəhudiləri dini icmasına 350,0 (üç yüz əlli) min manat, Avropa yəhudilərinin Bakı dini icmasına 150,0 (yüz əlli) min manat, Azərbaycan Respublikasında Katolik Kilsəsinin Apostol Prefekturası dini qurumuna 150,0 (yüz əlli) min manat və Azərbaycan Respublikasının Alban-Udi xristian dini icmasına 150,0 (yüz əlli) min manat, habelə digər qeyri-islam dini icmalarına maddi dəstək göstərilməsi üçün Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində olan Mənəvi Dəyərlərin Təbliği Fonduna 100,0 (yüz) min manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 24 may 2019-cu il.**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının ildönümü - Respublika Günü münasibətilə San-Marino xalqı adından və şəxsən öz adımızdan Zati-alinizə və dost Azərbaycan xalqına ən gözəl arzularımızı və səmimi təbriklərimizi çatdırırıq.

Zati-aliləri, Sizə ən yüksək ehtiramımızı bildirir, səmimi qəlbdən xoşbəxtlik arzulayır, Azərbaycan xalqına isə rifah, inkişaf və firavanlıq diləyirik.

*Dərin hörmətlə,*

**Nikola Selva və Mişel Muratori**
**San-Marino Respublikasının Kapitan-Regentləri**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm İlham Heydər oğlu.

İcazə verin, ilk növbədə, Sizə dərin ehtiramımı bildirim və ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Sizi ürəkdən təbrik edim.

Bu əlamətdar gündə Sizə və Azərbaycan Respublikasının bütün vətəndaşlarına möhkəm cansağlığı, xoşbəxtlik, firavanlıq və tərəqqi diləyirəm.

Uzun illərdir ki, bizim regionlar arasında qarşılıqlı faydalı dostluq münasibətləri inkişaf edir və möhkəmlənir. Heydər Əliyev Fondunun və Bakının Nərimanov rayonunun fəal iştirakı ilə Həştərxan vilayətində bizim region üçün əhəmiyyətli olan bir sıra investisiya layihələri həyata keçirilib. Həştərxan şəhərində Azərbaycan İşgüzar Mərkəzinin, iri logistik habın yaradılması Azərbaycan ilə Rusiyanın Həştərxan vilayəti arasında iqtisadi-ticari əlaqələrin spektrini əhəmiyyətli dərəcədə genişləndirir.

Bakı ilə Həştərxan arasında müntəzəm aviareyslərin bərpa edilməsi səmərəli qarşılıqlı fəaliyyətin növbəti parlaq nümunəsidir. Bu aviareyslər işgüzar fəallığı daha da stimullaşdıracaq, turizm əlaqələrini inkişaf etdirəcək və humanitar əməkdaşlığı genişləndirəcək. Bu layihə Sizin şəxsi dəstəyiniz sayəsində mümkün olub. Buna görə Sizə bütün həştərxanlılar adından dərin minnətdarlığımızı bildirirəm.

Səmimi qəlbdən ümid edirəm ki, Həştərxan vilayəti ilə Azərbaycan arasında əməkdaşlıq xalqlarımızın rifahı naminə bundan sonra da səmərəli inkişaf edəcək və möhkəmlənəcək.

*Hörmətlə,*

**Sergey Morozov,**
**Rusiyanın Həştərxan vilayəti qubernatorunun vəzifəsini icra edən**

## Silahlı Qüvvələrin genişmiqyaslı əməliyyat-taktiki təlimlərinin yekunları müzakirə olunub



**Silahlı Qüvvələrin genişmiqyaslı əməliyyat-taktiki təlimlərinin yekunları ilə bağlı Müdafiə naziri, general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xidməti müşavirə keçirilib.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən, gecə vaxtı keçirilən genişmiqyaslı təlimlərin nəticələrini təhlil edən general-polkovnik Zakir Həsənov qarşıya qoyulan tapşırıqların müvəffəqiyyətlə yerinə yetirildiyini deyib. Nazir təlimlərin əhəmiyyətini qeyd edərək, Ali Baş Komandanın Azərbaycan Ordusu qarşısında qoyduğu müvafiq tapşırıqları komandir-rəis heyətinə çatdırıb.

General-polkovnik Zakir Həsənov regiondakı mövcud hərbi-siyasi vəziyyətə toxunaraq, Ermənistanda baş verən daxili siyasi qarşıdurmanın qoşunların təmas xəttindəki vəziyyətin gərginləşməsinə səbəb ola biləcəyini də xüsusi qeyd edib. Müdafiə naziri qoşunlara düşmənin irimiqyaslı təxribatlarının qarşısını sərəncamda olan silahlardan istifadə etməklə dərhal almağı tapşırıb.

**AZƏRTAC**

## Gənclər və idman naziri Masallıda vətəndaşları qəbul edib



**Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Rəhimov mayın 24-də Masallı rayonunda Masallı, Cəlilabad, Yardımlı rayonlarından olan vətəndaşları qəbul edib.**

Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, 10-dan çox vətəndaşın iştirak etdiyi qəbulda müraciətlərin əksər hissəsi gənclər və idman sahəsi ilə bağlı olub. Digər müraciətlər isə Olimpiya İdman komplekslərinin, Gənclər evlərinin, eyni zamanda, digər idman qurğularının tikintisi və təmiri, onların idman avadanlığı ilə təmin olunması, yeni uşaq-gənclər idman məktəblərinin, qeyri-hökumət təşkilatlarının yaradılması, fəxri adların və məşqçilik dərəcələrinin verilməsi ilə bağlı olub.

Bir sıra müraciətlər yerindəcə həllini tapıb. Nazirliyin səlahiyyətlərinə aid olmayan müraciətlərin isə qeydə alınaraq aidiyyəti üzrə göndəriləcəyi bildirilib. Müraciətlərin bir qismi isə baxılması üçün icraya yönəldilib.

**AZƏRTAC**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Rusiyada yaşayan çoxminlik Azərbaycan diasporu adından və şəxsən öz adımdan Sizə dərin ehtiramımı bildirir və milli bayramımız - Respublika Günü münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Biz Sizin müdrik rəhbərliyinizlə Azərbaycanın sosial-siyasi həyatında aparılan əsaslı islahatları, ölkənin iqtisadi potensialının və nüfuzunun artırılması işində qazanılan uğurları məmnunluqla izləyirik.

Əminəm ki, Sizin səyləriniz sayəsində Rusiya ilə Azərbaycan arasında strateji tərəfdaşlıq, ənənəvi dostluq əlaqələri xalqlarımızın rifahı naminə bundan sonra da inkişaf edəcək.

Bu xoş fürsətdən istifadə edib Sizə möhkəm cansağlığı və xoşbəxtlik, Azərbaycan xalqına isə sülh, firavanlıq və tərəqqi diləyirəm.

*Sizə səmimi və dərin hörmətlə,*

**Fazil Qurbanov**
**Rusiyanın Azərbaycan diasporunun lideri, akademik.**

# Baş prokuror Gəncədə vətəndaşları qəbul edib







**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması ilə bağlı tapşırıqları prokurorluq orqanları tərəfindən daim diqqətdə saxlanılaraq vətəndaşların qəbulu, onların ərizə və şikayətlərinə baxılaraq həll olunması üçün müvafiq tədbirlər görülür.**

Baş prokuror Zakir Qaralov mayın 24-də Gəncə Şəhər Prokurorluğunun inzibati binasında Gəncə şəhərindən, Samux və Göygöl rayonlarından olan vətəndaşları qəbul edib.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qəbuldan əvvəl baş prokuror Zakir Qaralov və Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsi önünə gül dəstələri düzərək, dahi şəxsiyyətin əziz xatirəsini dərin ehtiramla yad ediblər.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda Zakir Qaralov bölgədə yaşayan 44 vətəndaşın müraciətini dinləyib. Qaldırılan məsələlərin qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər verilib.

Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb. Digər müraciətlər isə araşdırılması üçün nəzarətə götürülüb.

Bölgə sakinlərinin yerlərdə qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şəraitin yaradılmasından razılıqlarını ifadə edən vətəndaşlar göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlıqlarını bildiriblər.

**AZƏRTAC**

# “SÖZ” layihəsi yeni təqdimatda





**Mayın 24-də “Art Gallery Hotel”də ölkəmizdə çox populyar olan “SÖZ” layihəsinin yeni istiqamətinin təqdimatı keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva da iştirak edib.



Layihənin direktoru Nigar Həsənzadə “SÖZ” ədəbi layihəsinə göstərdiyi dəstəyə görə Leyla Əliyevaya minnətdarlığını bildirib. O deyib ki, özünü təsdiqləmiş ədəbi layihə bu dəfə qonaq və iştirakçılar qismində yalnız gənc müəllifləri toplayıb. Bu yeni konsepsiya məhz onlar üçün hazırlanıb. Bu konsepsiyanın “SÖZ” layihəsinin əsas fəaliyyətindən fərqi yalnız ədəbi axşamların təşkili deyil, həm də onların inkişafı və birləşməsi üçün şəraitin yaradılmasındadır.

Yeni konsepsiya barədə danışan N.Həsənzadə deyib ki, bu, gənc müəlliflər üçün “açıq qapılar”ın keçirilməsini nəzərdə tutur, gənc qələm əhlinə dostlar, həmkarlar və layihələrin rəhbərləri ilə görüşmək, faydalı məlumatları bölüşmək, onları maraqlandıran sualları vermək və ayda iki dəfə rahat və müasir “Art Gallery Hotel” kafesində dostlara yeni əsərlərini oxumaq imkanı verir. Bu günlərdə “Sattart Cafe” öz qonaqlarına pulsuz xidmət göstərəcək.





Layihənin direktoru bildirib ki, “SÖZ” layihəsinin məqsədi həm yerli, həm də xarici dillərdə yazıb-yaradan istedadlı gəncləri birləşdirərək ölkədə yeni yaradıcı ziyalıların yaranmasına kömək etməkdir. Nigar Həsənzadə deyib: “Biz öz bacarıqlarına inanan bütün gənc müəllifləri, yazıb-yaradan istedadları “SÖZ” adlı ailənin bir üzvü olmağa dəvət edirik, layihənin inkişafı və tərəqqisində fəal iştirak etməyə çağırırıq. Bizim “SÖZ” adlı ailəmiz yarandığı gündən artıq 3 ildir ki, Azərbaycan bədii ədəbiyyatının dəstəklənməsi və inkişafına mühüm töhfələr verməklə yanaşı, layihəmizdə iştirak edən bir çox gəncin taleyini müsbətə doğru dəyişməyə müvəffəq olub”.

Sonra gənc şairlər öz şerlərini oxuyublar.

Tədbirdə Leyla Əliyeva müəllifi olduğu şeirləri oxuyub.

Gecəyə Nigar Həsənzadənin səsləndirdiyi poeziya nümunəsi ilə yekun vurulub.

Sonda gənc yazarlar öz kitablarını Leyla Əliyevaya təqdim edib, onunla xatirə şəkli çəkdiriblər.

**AZƏRTAC**

# Mədəniyyət naziri və müavinləri regionlarda vətəndaşlarla görüşüblər

**Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin və onların müavinlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən mayın 24-də Mədəniyyət naziri Əbülfəs Qarayev Şamaxı rayon Heydər Əliyev Mərkəzində Şamaxı və Qobustan rayonlarından olan vətəndaşları qəbul edib.**



Mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev İsmayıllı rayon Heydər Əliyev Mərkəzində İsmayıllı və Qəbələ rayonlarından, nazir müavini Rafiq Bayramov isə Ağsu rayon Heydər Əliyev Mərkəzində Ağsu rayonundan olan vətəndaşlarla görüşüblər.

Mədəniyyət Nazirliyindən AZƏRTAC-a bildirilib ki, qəbullardan öncə ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət olunub, abidə önünə tər çiçək dəstələri düzülüb.

Nazir Əbülfəs Qarayevin iştirak etdiyi qəbulda vətəndaşlar tərəfindən Şamaxı rayonunda aşıq Məmmədağa Babayevin büstünün ucaldılması, Şamaxı Tarix-Diyarşünaslıq Muzeyinin nəzdində “Şəxsiyyətlər muzeyi”nin yaradılması, “Yeddi günbəz” kompleksinin bərpa olunması, Sündü kəndində olan mağaraya inventar nömrəsinin, Şirvan folklor kollektivinə “xalq kollektivi” adının verilməsi ilə bağlı müraciətlər edilib. Həmçinin Qobustan rayon Rəşid Behbudov adına Musiqi məktəbi üçün konsert zalının tikilməsi, Şamaxıda səsyazma studiyasının yaradılması, Dəmirçi Arxeologiya Muzeyinin nazirliyin balansına verilməsi, fəxri adlar, işlə təmin olunma və digər məsələlərlə bağlı müraciət də səslənib.

* * *

Nazirin birinci müavini Vaqif Əliyevin keçirdiyi qəbulda İsmayıllı və Qəbələ rayonlarından olan vətəndaşların müraciətləri xalq teatrlarının rejissorları üçün paytaxt teatrlarında praktiki məşğələlərin təşkili, Qəbələ rayon Heydər Əliyev Mərkəzinin yeni eksponatlarla təchizatı, İsmayıllı rayon Tarix-Diyarşünaslıq Muzeyinin nazirliyin balansına verilməsi, Qəbələ Dövlət Rəsm Qalereyası üçün inzibati binanın tikilməsi, rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminə yeni kitabların verilməsi, “Lahıc” xalq kollektivinə ştat vahidlərinin ayrılması barədə olub.

* * *

Nazir müavini Rafiq Bayramovun iştirak etdiyi qəbulda Ağsu rayon sakinləri tərəfindən ölkədəki Heydər Əliyev mərkəzlərinə tanışlıq turlarının təşkili, Ağsu Uşaq musiqi məktəbinin incəsənət məktəbinə çevrilməsi, məktəb üçün yeni binanın tikilməsi, Tarix-diyarşünaslıq muzeyinin təmiri və ekspozisiyasının yenidən qurulması və digər məsələlər barədə müraciətlər edilib.

* * *

Mədəniyyət Nazirliyinin aidiyyəti struktur bölmələri nümayəndələrinin iştirakı ilə keçirilən qəbullarda vətəndaşlar diqqətlə dinlənilib, qaldırılan məsələlərin böyük əksəriyyəti yerindəcə həll edilib, digər müraciətlərin operativ araşdırılması və qanunvericiliyə uyğun həlli üçün müvafiq tapşırıqlar verilib. Ümumilikdə qəbullarda 50 nəfərdən çox vətəndaşın müraciətinə baxılıb.

Qəbuldan sonra mətbuata açıqlama verən mədəniyyət naziri Əbülfəs Qarayev vətəndaşlar tərəfindən qaldırılan məsələlərin əhəmiyyətini qeyd edib: “Bugünkü qəbulda mədəni xidmətlərin səviyyəsinin artırılması, müasir tələblər səviyyəsində qurulması kimi məsələlər qaldırıldı, eyni zamanda, fərdi qaydada baxılmalı olan məsələlər də var. Həmçinin bölgədə olan tarixi abidələrin bərpası, qorunması ilə bağlı məsələlər də xüsusi diqqətdə saxlanılacaq”.

Nazir vurğulayıb ki, Şamaxı şəhəri Azərbaycan tarixinə görkəmli şəxsiyyətlər bəxş edib. Bu il böyük Azərbaycan şairi İmadəddin Nəsiminin yubileyi ilə əlaqədar Şamaxıda festivalın keçirilməsinə hazırlıq işləri görülür. Həmçinin Mirzə Ələkbər Sabirin ev-muzeyinin daxili tərtibatı tamamlanmaq üzrədir.

Əbülfəs Qarayev mayın 24-də nazir müavinləri tərəfindən İsmayıllı, Qəbələ və Ağsu sakinlərinin qəbulunun keçirildiyini də diqqətə çatdıraraq deyib ki, bu cür görüşlər vətəndaşları narahat edən məsələlərin operativ həll olunmasına şərait yaradır.

**AZƏRTAC**

# Rusiya Əmək və Sosial Müdafiə nazirinin başçılıq etdiyi nümayəndə heyəti “DOST” mərkəzi ilə tanış olub





**Ölkəmizə səfərə gəlmiş Rusiya Federasiyası Əmək və Sosial Müdafiə naziri Maksim Topilinin rəhbərlik etdiyi nümayəndə heyəti Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin (DOST Agentliyi) “DOST” mərkəzi ilə tanış olub.**

AZƏRTAC xəbər verir ki, Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev qonaqlara mərkəz haqqında məlumat verib. Nazir vurğulayıb ki, bu gün ölkəmizdə sosial sahədə aparılan islahatların əsas hədəflərindən biri də dövlət sosial xidmətlərinin innovativ yanaşmalara əsaslanan modern, çevik və optimal mexanizmlər üzərində qurulmasıdır. Prezident İlham Əliyevin 2018-ci il 9 avqust tarixli Fərmanı ilə yaradılan DOST Agentliyi də bu məqsədə xidmət edir. “DOST” layihəsi Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsünün nəticəsi olmaqla geniş əhatəyə malik sosial xidmətlərin “bir pəncərə”dən və şəffaf şəkildə, vətəndaş məmnunluğu prinsipi ilə təqdim edilməsini nəzərdə tutur.

Qeyd olunub ki, agentliyin ilk “DOST” mərkəzi hər gün 350-dən artıq vətəndaşa xidmət edir. Hazırda “DOST” mərkəzində əmək, məşğulluq, sosial təminat sahələri üzrə 126 növdə xidmət göstərilir. 2019-2025-ci illərdə bütün ölkə üzrə 31 “DOST” mərkəzi yaradılacaq və onlar 2,8 milyon şəxsi xidmətlərlə təmin edəcək.

Rusiya nümayəndə heyəti əlillik, tibbi ekspertiza və protez-ortopedik təminat, pensiya, sosial sığorta, əmək münasibətləri, məşğulluq, sosial müavinət və təqaüdlər, sosial xidmətlər, həmçinin sosial-hüquqi, sosial-pedaqoji, sosial-psixoloji, sosial-məişət xidmətləri və s. sahələr üzrə xidmət bölmələri ilə tanış olub. Burada çalışan sosial agentlərin və könüllülərin iş funksiyalarını, müraciət edən vətəndaşlara xidmət göstərilməsi prosesini nəzərdən keçiriblər.

M.Topilin və nümayəndə heyətinin digər üzvləri “DOST” mərkəzinin onlarda maraq və gözəl təəssüratlar yaratdığını vurğulayıblar. Onlar ölkəmizin sosial sahədə bu mühüm islahat tədbirinin uğurlu innovativ yenilik olduğunu qeyd ediblər.

Sonra nümayəndə heyətinə Azərbaycanın əmək, məşğulluq, sosial təminat sahələrində elektron sistemlərinə, əhaliyə göstərilən elektron xidmətlərə dair təqdimatlar edilib. Həmçinin ölkəmizdə qeyri-rəsmi məşğulluğun qarşısının alınması sahəsində tədbirlər və icra olunan özünüməşğulluq proqramı ilə yanaşı, ünvanlı dövlət sosial yardımı və əlilliyin qiymətləndirilməsi üzrə elektron sistemlərin bu günlərdə Beynəlxalq Sosial Təminat Assosiasiyası tərəfindən xüsusi mükafatlara layiq görüldüyü də diqqətə çatdırılıb.

**AZƏRTAC**

# Azərbaycanla Rusiyanın nüvə və radiasiya texnologiyaları sahəsində əməkdaşlıq imkanları müzakirə edilib

**Azərbaycan ilə Rusiya arasında nüvə və radiasiya texnologiyaları, nüvə enerjisindən dinc məqsədlərlə istifadə sahəsində əməkdaşlıq imkanları müzakirə edilib.**



Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, nazir Ramin Quluzadənin rəhbərlik etdiyi nümayəndə heyəti ilə Rusiyanın nüvə enerjisi üzrə dövlət korporasiyası “Rosatom”un nümayəndə heyəti arasında görüş olub. 360 təşkilatı özündə birləşdirən nüvə enerjisi üzrə beynəlxalq korporasiya və Azərbaycan tərəfinin rəsmiləri ümumi əlaqələrin vəziyyəti, gələcək perspektiv üzrə müzakirələrin keçirilməsi haqqında danışıqlar aparıblar.

Tərəflər nüvə elmləri, nüvə və radiasiya texnologiyaları, nüvə enerjisindən dinc məqsədlərlə istifadə və digər sahələrdə əməkdaşlıq imkanlarını müzakirə ediblər.

Görüşdə Rusiya tərəfindən “Rosatom” şirkətinin direktor müavini Spasskiy Nikolay Nikolayeviç, Merten Aleksandr Aleksandroviç və “Rusatom” Beynəlxalq Şəbəkəsinin direktoru iştirak edib.

Görüş zamanı Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Milli Nüvə Tədqiqatları Mərkəzi ilə “Rosatom” dövlət korporasiyasının qurumları arasında kadr hazırlığı, nüvə-elmi tədqiqatlar işinin aparılması və gələcək perspektivlər müzakirə olunub.

Danışıqların əsas mövzusu “Rosatom” şirkəti ilə Azərbaycanın Milli Nüvə Tədqiqatları Mərkəzi arasında nüvə fizikası və reaktoru sahəsində mütəxəssisin hazırlanması, gələcəkdə bu işlərin genişləndirilməsi olub. Azərbaycanın Milli Nüvə Tədqiqatları Mərkəzinin böyük nüvə reaktoru və digər avadanlıqların olmadığını nəzərə alaraq “Rosatom” şirkətinin qurumları ilə bu istiqamətdə geniş işlər görüləcəyi qərara alınıb.

Bundan başqa, milli nüvə, elmi tədqiqat obyektlərinin qurulması, iki şirkət arasında bu istiqamətdə qarşılıqlı memorandumun diplomatik qaydada imzalanması məsələsinə də toxunulub.

Növbəti mərhələdə “Rosatom” şirkətinin böyük nümayəndə heyətinin Azərbaycana səfəri və nüvə konfransının keçirilməsi planlaşdırılır. Azərbaycanlı mütəxəssislərin mütəmadi olaraq “Rosatom” şirkətinin keçirdiyi layihələrdə iştirakı və təcrübə mübadiləsi nəzərdə tutulub.

**AZƏRTAC**

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunda olub







**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva B.Ə.Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunda olub.**

AZƏRTAC xəbər verir ki, Leyla Əliyeva burada müalicə alan uşaqlarla görüşüb, onlarla söhbət edib.

Tibbi heyətlə görüşən Leyla Əliyeva uşaqların müalicəsinin gedişi və müəssisədə yaradılmış şəraitlə tanış olub.

Qeyd edək ki, institut hazırda üç hissədən ibarətdir: klinika, Mərkəzi Qan Bankı və elm bölməsi. Klinikanın tərkibinə böyüklər üçün iki hematoloji şöbə, uşaq hematologiyası, reanimasiya və intensiv terapiya, konsultativ poliklinika, klinik-diaqnostik laboratoriya və talassemiyanın profilaktikası şöbələri daxildir.

2017-ci ildə Dövlət Proqramı çərçivəsində institutda yeni immunohistoloji müayinələrin aparılması üçün laboratoriya da yaradılıb. Burada immunohistokimyəvi müayinələrin köməyi ilə qanın bədxassəli xəstəliklərinin tam diferensial diaqnostikası, hədəf terapiyanın monitorinqi və xəstəliyin proqnozu müəyyən edilir. Artıq leykozların diaqnostikası və müalicəsi məqsədilə xəstələrin digər ölkələrə getməsinə ehtiyac qalmır.

**AZƏRTAC**

# "Şəhər ekologiyası" layihəsi uğurla davam edir









**Mayın 24-də IDEA İctimai Birliyinin "Şəhər ekologiyası" layihəsi çərçivəsində ADA Universitetinin kampusunda mövcud olan yaşıllıq sahəsinə sincablar buraxılıb. "Şəhər ekologiyası" layihəsi şəhər mühitinə xas olan və keçmişdə geniş yayılmış fauna növlərinin qorunmasına və qaytarılmasına yönəlib.**

Sincablar üçün əlverişli yaşam şəraitinin olduğu kampus ərazisinə ilkin olaraq 25 sincab buraxılıb.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva tədbirdə iştirak edib.

Sincabların məhz bu əraziyə buraxılmasında digər məqsəd onların şam ağaclarının çoxluq təşkil etdiyi yeni Zooloji Parkın ərazisinə və Dədə Qorqud Parkına keçərək təbii şəkildə çoxalmasıdır.





Məlum olduğu kimi, vəhşi təbiətin qorunub saxlanılması üzrə çoxşaxəli səylərlə yanaşı, Leyla Əliyevanın təşəbbüsü ilə şəhər mühitinə aid olan növlərin mühafizəsi istiqamətində də geniş tədbirlər həyata keçirilir. Bu xüsusda, Bakıda fəaliyyəti küçə heyvanlarının qorunmasına yönəlmiş IDEA Heyvanlara Qayğı Mərkəzi yaradılıb, şəhərboyu pişiklər üçün xüsusi evciklər qurulur, IDEA quş yuvaları asılır və digər bir sıra işlər aparılır. "Şəhər ekologiyası" layihəsi Bakı və onun ətrafındakı ictimai yerlərin şəhər mühitində rahat yaşayıb çoxala bilən heyvan və quş növləri ilə zənginləşdirilməsi, eləcə də bu növlərin qorunub saxlanılması istiqamətində ardıcıl tədbirlərin həyata keçirilməsini nəzərdə tutur. Bütün bu səylərin əsas məqsədi şəhərdə yaşayan insanlarla ətraf mühit arasında ahəngin yaradılmasından, daha sıx və daha sağlam əlaqənin möhkəmləndirilməsindən ibarətdir.



Keçmişdə Bakı şəhəri ərazisində çoxsaylı sincab və tutuquşular məskunlaşıb və onlar parklarda, yaşıllıqlar mövcud olan digər ərazilərdə insanlar arasında sərbəst dolaşıb. Lakin ötən əsrin sonlarında mövcud olan ekoloji problemlər səbəbindən bu növlərin sayı kəskin azalmışdı. Son illər ölkədə aparılan geniş yaşıllaşdırma və abadlaşdırma işləri, xüsusən də IDEA İctimai Birliyinin səyləri sayəsində Bakıda qanunsuz ağac kəsilməsi hallarının azaldılması və saysız-hesabsız yeni ağacların əkilməsi nəticəsində şəhərdə bir çox fauna növlərinin qaytarılması üçün münbit şərait yaradılıb. Layihə çərçivəsində kampusun ərazisinə buraxılan sincabların şam ağaclarının çoxluq təşkil etdiyi Dədə Qorqud Parkına və yeni Zooloji Parkın ərazisinə də keçərək təbii şəkildə çoxalacaq.



IDEA İctimai Birliyi hər kəsi şəhər mühitində yaşaya bilən fauna növlərimizin sayını bərpa etmək prosesinə dəstək verməyə, heyvanlara qarşı qayğıkeş olmağa, onlara yeni yaşam mühitinə adaptasiya dövründə həssaslıqla yanaşmağa çağırır.

**AZƏRTAC**

# "Oxu bayramı" müsabiqəsinin qalibləri mükafatlandırıldı

Xəbər verdiyimiz kimi, Azərbaycan xalqının ümummilli lideri, ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşəbbüsü və Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı ilə "Oxu bayramı" müsabiqəsi təşkil olunmuşdur.

Müsabiqənin məqsədi əhalidə mütaliə vərdişlərini inkişaf etdirmək, kitab oxumağa marağı artırmaqdır.

Qaliblərin mükafatlandırma mərasimi Yasamal Rayon Heydər Əliyev Mərkəzində keçirildi.

**"Respublika".**

## AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN

## Azərbaycan Respublikası Mülki Məcəlləsinin 2.5-ci maddəsinin şərh edilməsinə dair Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun

## QƏRARI

**24 may 2019-cu il** **Bakı şəhəri**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Südabə Həsənova, Rövşən İsmayılov (məruzəçi-hakim), Ceyhun Qaracayev, Rafael Qvaladze, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin,

maraqlı subyektlərin nümayəndələri Bakı Apellyasiya Məhkəməsinin İnzibati-İqtisadi Kollegiyasının sədri Vidadi Məmmədovun, Azərbaycan Respublikası Milli Məclisi Aparatının İnzibati və hərbi qanunvericilik şöbəsinin baş məsləhətçisi Elnur Nuriyevin,

ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Mülki hüquq kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru Azad Talıbovun iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə müvafiq olaraq xüsusi konstitusiya icraatı qaydasında açıq məhkəmə iclasında Bakı Apellyasiya Məhkəməsinin müraciəti əsasında Azərbaycan Respublikası Mülki Məcəlləsinin 2.5-ci maddəsinin Azərbaycan Respublikasının inzibati prosessual qanunvericiliyi baxımından şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim R.İsmayılovun məruzəsini, maraqlı subyektlərin nümayəndələrinin çıxışlarını və ekspertin rəyini dinləyib müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

### MÜƏYYƏN ETDİ:

Bakı Apellyasiya Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra - Konstitusiya Məhkəməsi) müraciət edərək Azərbaycan Respublikası Mülki Məcəlləsinin (bundan sonra - Mülki Məcəllə) 2.5-ci maddəsinin Azərbaycan Respublikasının inzibati prosessual qanunvericiliyi baxımından şərh olunmasını xahiş etmişdir.

Müraciətdən və ona əlavə edilmiş sənədlərdən görünür ki, məcburi dövlət sosial sığorta haqları ilə bağlı tələblərə baxılarkən məhkəmələr arasında fikir ayrılığı yaranmışdır. Belə ki, bəzi hallarda həmin məsələlərə dair işlərə baxarkən məhkəmələr Mülki Məcəllənin bir sıra normalarını tətbiq edərək onların tələblərinə əsasən mübahisələri həll edirlər.

Müraciətedən hesab edir ki, sosial sığorta münasibətləri bir tərəfdən sığortaçı, digər tərəfdən sığortaedənlər və sığortaolunanlar arasında yaranmaqla inzibati hüquq xarakterlidir və ümumi (publik) hüquq sahəsinə aiddir. Bu səbəbdən də Mülki Məcəllənin 2.5-ci maddəsinin tələbləri baxımından həmin münasibətlərə mülki hüquq normalarının tətbiq edilməsi istisna edilir. Belə ki, Mülki Məcəllənin 2.5-ci maddəsinə əsasən, əgər qanunvericilikdə ayrı qayda nəzərdə tutulmayıbsa, mülki qanunvericilik və başqa hüquqi aktlar bir tərəfin digər tərəfə inzibati və ya digər hakimiyyət tabeliyinə əsaslanan əmlak münasibətlərinə, o cümlədən vergi, maliyyə və inzibati münasibətlərə tətbiq edilmir.

Müraciətedənin qənaətinə görə, inzibati məhkəmə icraatı qaydasında məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi ilə bağlı işlərə baxılarkən Mülki Məcəllənin 2.5-ci maddəsinin tətbiqi ilə bağlı vahid məhkəmə təcrübəsinin formalaşdırılması məqsədi ilə həmin normanın şərh edilməsi zərurəti yaranmışdır.

Konstitusiya Məhkəməsinin Plenumu müraciətlə bağlı aşağıdakıları qeyd etməyi zəruri hesab edir.

Publik hüquqi münasibətlər bir tərəfin digər tərəfin hakimiyyəti tabeliyində olmasına əsaslanır. Bu münasibətlər ümumi maraqlar naminə və dövlətin adından fəaliyyət göstərən bir tərəfin - publik orqanın hakimiyyət səlahiyyətlərinə malik olmasına, digər tərəfin - fərdin (fiziki və hüquqi şəxslərin) isə tabeçiliyinə əsaslanmaqla tərəflərin subordinasiyasını nəzərdə tutur. Xüsusilə qeyd olunmalıdır ki, publik orqanın tələbləri və şəxslərin vəzifələri müqavilədən deyil, qanundan irəli gəlir (Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Vergi Məcəlləsinin 78.3, 85.4, 90.3 və 93.1.1-ci maddələrinin şərh edilməsinə dair" 2011-ci il 12 yanvar tarixli Qərarı).

Bundan fərqli olaraq, mülki hüquq münasibətləri tərəflərin bərabərliyi və onların iradələrinin sərbəstliyinə əsaslanan hüquq münasibətləridir. Bu münasibətləri tənzimləyən mülki hüquq normaları daha çox mahiyyətcə dispozitiv olan qaydalardır (Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 467-ci maddəsinin bəzi müddəalarının şərh edilməsinə dair" 2014-cü il 15 iyul tarixli Qərarı).

Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, müraciətdə qaldırılan məsələyə aydınlıq gətirilməsi üçün mülki (xüsusi) və vergi, sosial-təminat (ümumi) hüquq sahələri ilə tənzimlənən əmlak münasibətlərinin səciyyəvi xüsusiyyətləri qeyd edilməlidir.

Mülki hüquqla tənzimlənən əmlak münasibətləri aşağıdakı xüsusiyyətlərlə səciyyələnir:

1) bu əmlak baxımından bir-birindən təcrid olan subyektlər arasındakı münasibətlərdir. Mülki hüquq münasibətlərində tərəflərdən hər birinin öz əmlakı var və o, digər tərəfin əmlakı üzərində sərəncam vermək səlahiyyətlərinə malik deyil;

2) tərəflərdən hər biri müstəqil olaraq, yalnız özünün sərbəst iradə ifadəsinə uyğun olaraq əmlakı üzərində sərəncam vermək səlahiyyətinə malikdir;

3) tərəflər bir-birinə münasibətdə bərabər vəziyyətdədir. Onlardan biri digərinin və onun əmlakı üzərində hər hansı hakimiyyətə malik deyil. Mülki hüquqla tənzimlənən münasibətlər subordinasiya deyil, koordinasiya münasibətləridir;

4) bu münasibətlər əsasən əvəzlidir, yəni bir qayda olaraq, mübadilə xarakteri daşıyır.

Yuxarıda göstərilən xüsusiyyətlər mülki hüququn tənzimlədiyi əmlak münasibətlərini hüququn digər sahələri tərəfindən tənzimlənən oxşar əmlak münasibətlərindən fərqləndirir. Məsələn, vergi münasibətləri də əmlak xarakterli olsa da, dövlətlə fiziki və ya hüquqi şəxs arasındakı şaquli, hakimiyyət-tabeçilik münasibətləri kimi çıxış edir. Məzmunu vergi qanunvericiliyinin müvafiq müddəalarına əsasən fiziki və hüquqi şəxslərə məxsus olan əmlakın dövlətin xeyrinə məcburi götürülməsindən ibarət olan vergi münasibətlərinə mülki münasibətlər üçün yuxarıda sadalanan xüsusiyyətlər, o cümlədən tərəflərin əmlak üzərində sərəncam sərbəstliyi, onların bərabərliyi, mübadilənin ekvivalentliyi və sair kimi xüsusiyyətlər xarakterik deyil.

Bu səbəbdən Mülki Məcəllənin 2.5-ci maddəsi, qanunvericilikdə ayrı qaydanın nəzərdə tutulduğu hallar istisna olmaqla, digər bütün hallarda mülki qanunvericilik müddəalarının bir tərəfin digər tərəfə inzibati və ya digər hakimiyyət tabeliyinə əsaslanan əmlak münasibətlərinə, o cümlədən vergi, maliyyə və inzibati münasibətlərə tətbiq edilməsini prinsipial şəkildə qadağan edir.

Bu cür qadağa, mülki hüquq başda olmaqla, bütün xüsusi hüquq sahələrinə xas olan hüquqi tənzimləmə metodlarının publik hüquq sahələrinə, o cümlədən inzibati, sosial təminat, vergi hüququna xas tənzimləmə metodlarından əhəmiyyətli dərəcədə fərqli olmasından irəli gəlir. Belə ki, ümumi hüquq normaları cəmiyyət və dövlət mənafeyi ilə bağlı münasibətləri nizama saldığından onlar ayrı-ayrı fiziki və hüquqi şəxslər arasında yaranan münasibətləri tənzimləyən və fərdlərin maraqlarına xidmət edən xüsusi hüquq normalarından fərqli olaraq dispozitiv deyil, imperativ xarakter daşıyır.

Məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi ilə bağlı yaranan münasibətlər də sosial təminat hüququnun predmetini təşkil etməklə, tərəflərin iradələrinin sərbəstliyinə və bərabərliyinə deyil, digər ümumi (publik) hüquq münasibətləri kimi bir tərəfin digərinə tabeliyinə, münasibətlərin məcburiliyinə, tənzimlənmənin imperativliyinə əsaslanır. Bu sahədə qanunverici "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dövlət sosial sığortasının məcburiliyi prinsipini qəbul etmiş, sığortaedənin üzərinə uçota durmaqla, dövlət sosial sığorta haqqını ödəməklə, sığortaçıya müvafiq hesabatları, arayışları təqdim etməklə bağlı vəzifələr qoymuş, qarşı tərəfin (məcburi dövlət sosial sığortası sahəsində dövlət idarəetməsini həyata keçirən orqanın) isə bununla bağlı səlahiyyətlərini dəqiq şəkildə müəyyən etmişdir. O da qeyd olunmalıdır ki, məcburi dövlət sosial sığorta haqlarının hesablanmasına və ödənilməsinə nəzarət üzrə dövlət vergi orqanlarının səlahiyyətləri Vergi Məcəlləsində göstərilmişdir.

Beləliklə, məcburi dövlət sosial sığorta münasibətləri mahiyyət etibarilə ümumi (publik) hüquq münasibətləridir.

Bu isə Mülki Məcəllənin 2.5-ci maddəsinin tələbləri baxımından, məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi ilə bağlı yaranan mübahisələrin inzibati məhkəmələr tərəfindən həmin Məcəllənin müddəalarına əsaslanmaqla həllini istisna edir.

Bununla belə qanunverici "əgər qanunvericilikdə ayrı qayda nəzərdə tutulmayıbsa" müddəasını Mülki Məcəllənin 2.5-ci maddəsində ifadə edərkən, ümumi (publik) hüquq münasibətlərində mülki qanunvericiliyin tətbiqini tam istisna etməmişdir. Bu, yalnız qanunvericinin birbaşa göstərişinin olduğu halda mümkündür. Məsələn, Vergi Məcəlləsinin 78.2-ci maddəsinə müvafiq olaraq, vergi öhdəliklərinin yerinə yetirilməsi Mülki Məcəllədə nəzərdə tutulmuş ardıcıllıqla həyata keçirilir.

Göstərilənlərə əsasən, Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticəyə gəlir:

- Mülki Məcəllənin 2.5-ci maddəsinin tələbləri baxımından, qanunvericilikdə ayrı qayda nəzərdə tutulmadığı halda, məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi ilə bağlı yaranan münasibətlərə həmin Məcəllənin müddəaları tətbiq edilmir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI və IX hissələrini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

### QƏRARA ALDI:

**1.** Azərbaycan Respublikası Mülki Məcəlləsinin 2.5-ci maddəsinin tələbləri baxımından, qanunvericilikdə ayrı qayda nəzərdə tutulmadığı halda, məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi ilə bağlı yaranan münasibətlərə həmin Məcəllənin müddəaları tətbiq edilmir.

**2.** Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**3.** Qərar "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Bakinski raboçi" qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin.

**4.** Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr:**
**Fərhad ABDULLAYEV.**

*Azərbaycan Coğrafiya Cəmiyyəti - 80*

# Cəmiyyətin fəaliyyəti, uğurları və perspektivləri

**Azərbaycanın ictimai-mədəni həyatında geniş əhali kütləsi arasında elmin təbliği və coğrafi dünyagörüşün formalaşması istiqamətində, eləcə də bir sıra beynəlxalq və respublika əhəmiyyətli layihələrin həyata keçirilməsində önəmli rol oynamış Azərbaycan Coğrafiya Cəmiyyətinin 80 illik yubileyi tamam olur. Bu illər ərzində Coğrafiya Cəmiyyəti öz sıralarında respublikamızın aparıcı alim və mütəxəssislərini, müəllimlərini, tələbələrini və s. birləşdirərək nüfuzlu bir təşkilata çevrilmiş, Azərbaycan dövlətçiliyinin və azərbaycançılıq ideyasının möhkəmlənməsində öndə getmişdir.**

Azərbaycanda müstəqil Coğrafiya Cəmiyyətinin yaranmasına qədər XIX əsrin ortalarından başlayaraq Tiflisdə yaradılmış Rusiya Coğrafiya Cəmiyyəti Qafqaz bölməsinin Azərbaycan coğrafiyasının öyrənilməsində mühüm rol oynamışdır. Cəmiyyətin Qafqaz şöbəsində rus alimlərindən N.V.Xanıkov, Ş.İ.Xorzikov, Q.A.Abix, V.V.Dokuçayev, K.A.Satunin, İ.V.Mayevski və b. Azərbaycan haqqında coğrafi biliklərin toplanmasında böyük nailiyyətlər əldə etmişlər. Azərbaycanın tanınmış ziyalılarından M.F.Axundzadə, M.S.Şahtaxtlı, Ə.İ.Şahtaxtinski, İ.N.Qutqaşınlı və b. bu sahədə coğrafiya cəmiyyətinə yaxından kömək etmişlər. Onlar Azərbaycan təbiətinin, etnoqrafiyasının, əhalisinin və yaşayış məntəqələrinin ilk tədqiqatçıları olmuş və bu sahəyə aid elmi əsərlərini cəmiyyətin mətbuat orqanlarında nəşr etdirməklə, Azərbaycan coğrafiyasını zənginləşdirmişlər.

Azərbaycan Coğrafiya Cəmiyyəti yarananadək, yəni 1937-ci ildə artıq SSRİ EA Azərbaycan filialının Coğrafiya sektoru yaranmışdır. Coğrafi tədqiqatları genişləndirmək üçün Azərbaycanda coğrafiya ixtisası üzrə ali təhsilli kadrlara olan ehtiyac gündən-günə artırdı. Bu məqsədlə 1935-ci ildə Azərbaycan Pedaqoji İnstitutunda, 1944-cü ildə isə Azərbaycan Dövlət Universitetində coğrafiya fakültələri açılır. 1945-ci ildə isə Azərbaycan EA-nın, o cümlədən Coğrafiya İnstitutunun yaradılması coğrafiya elminin və kadr hazırlığının inkişafı üçün böyük imkanlar açdı. Formalaşmaqda olan bu elmi potensial və kadr bazası əsasında 1939-cu ildə Azərbaycanda coğrafiyaçıların ilk ictimai birliyi olan SSRİ Coğrafiya Cəmiyyətinin Azərbaycan filialı yarandı. Onun ilk sədri tanınmış tədqiqatçı, professor İ.Fiqurovski seçilmişdi. Yeni yaranmış cəmiyyət bütün coğrafiyaçı qüvvələri öz ətrafına toplamış, respublikada coğrafi biliklərin yayılması və s. məsələlərilə məşğul olmuşdur. Yarandığı ilk günlərdən Cəmiyyət 19 nəfər üzvdən və 5 nəfərlik Rəyasət heyətindən ibarət olmuşdur. Bunlar əsasən öz dövrünün görkəmli alim və mütəxəssisləri idi. Coğrafiya Cəmiyyətinə sonrakı illərdə akademik M.A.Qaşqay, professor H.B.Əliyev, Azərbaycan EA-nın müxbir üzvü Q.G.Gül, 1970-ci ildən 1990-cı ilə qədər akademik H.Ə.Əliyev, 1990-cı ildən 2012-ci ilə kimi akademik B.Ə.Budaqov Coğrafiya Cəmiyyətinə rəhbərlik etmişdir. 2012-ci ildən isə Cəmiyyətin prezidenti AMEA-nın akademiki R.M.Məmmədovdur. Fəaliyyət göstərdiyi müddət ərzində Coğrafiya Cəmiyyətinin doqquz qurultayı keçirilmişdir. Hər bir qurultayda coğrafiyanın mühüm problemlərinə, o cümlədən fiziki, iqtisadi və siyasi coğrafiyanın, məktəb coğrafiyasının və ekocoğrafiyanın müxtəlif məsələlərinə dair geniş müzakirələr aparılmışdır. Cəmiyyət öz işini ərazi və sahə bölmələri vasitəsilə, qurultaylar, konfranslar, iclaslar, seminarlar, mühazirələr və digər tədbirlər keçirməklə, həmçinin müxtəlif məcmuə və monoqrafiya, elmi populyar nəşrlər çap edilməsi və üzvlərinin elmi-pedaqoji fəaliyyəti ilə həyata keçirilmişdir. Cəmiyyətin 1947-ci ildə cəmi 41 üzvü vardısa, hazırda onların sayı 1300 nəfərdən çoxdur. Azərbaycan Respublikası dövlət müstəqilliyini əldə etdikdən sonra bütün sahələrdə olduğu kimi, Coğrafiya Cəmiyyəti də yeni prinsiplərlə işləməyə başlamışdır. Cəmiyyətin üzvləri son 80 ildə coğrafiya və ona yaxın elm sahələrində aparılan fundamental və tətbiqi elmi tədqiqatlarda mühüm nailiyyətlər əldə etmişlər. Yəni, Azərbaycan Coğrafiya Cəmiyyətinin keçmiş SSRİ-də özünəməxsus yeri və çəkisi olmuşdur. Keçmiş Sovetlər İttifaqında və hətta dünya miqyasında aparılan elmi tədqiqatlarda bu cəmiyyətin üzvlərinin nailiyyətləri danılmazdır. O cümlədən, Azərbaycanda coğrafiya elminin aparıcı alimlərindən Ə.M.Şıxlinski, Q.G.Gül, Ə.A.Mədətzadə, H.Ə.Əliyev, B.Ə.Budaqov, Ə.M.Məmmədov, N.Ş.Şirinov, M.A.Müseyibov, Ə.C.Əyyubov, B.T.Nəzirova, R.M.Məmmədov və başqaları coğrafiyanın müxtəlif sahələri üzrə xüsusi məktəblər yaratmışlar. Zaman keçdikcə təsərrüfat sahələrinin, elm və texnikanın inkişafı coğrafiya elmində fundamental istiqamətləri dövrün tələbləri səviyyəsinə qaldırdı. Uzun illər coğrafiyada hökm sürən sadə təsvir üsulundan tədricən fundamental və konstruktiv elmi təhlil səviyyəsinə keçid başlandı. Bununla əlaqədar Coğrafiya Cəmiyyəti də öz fəaliyyətini dövrün tələblərinə uyğunlaşdırmışdır. 80 il bundan əvvəl Azərbaycan Coğrafiya Cəmiyyətinin tərkibində cəmi üç bölmə vardısa, hazırda onların sayı 8-ə çatmışdır: 1. Fiziki coğrafiya; 2. İqtisadi coğrafiya; 3. Məktəb coğrafiyası; 4. Xəzər dənizi; 5. Hidrometeorologiya; 6. Xəritəçilik; 7. Təbiəti mühafizə; 8. Tibbi coğrafiya. Cəmiyyətin Bakı, Gəncə, Naxçıvan, Şəki, Lənkəran və s. şəhərlərdə şöbələri mövcuddur.



*Azərbaycan və Rusiya Coğrafiya Cəmiyyətləri arasında birgə əməkdaşlıq haqqında müqavilənin imzalanma mərasimi.*

Respublika Coğrafiya Cəmiyyətinin hər beş ildən bir keçirilən qurultayları elmi konfranslarla müşayiət edilirdi. Hər bir qurultayda coğrafiyanın mühüm problemlərinə, o cümlədən məktəb coğrafiyasının müxtəlif məsələlərinə həsr olunmuş müzakirələr keçirilirdi. Bu illər ərzində Azərbaycan coğrafiyasına aid çoxsaylı fundamental elmi əsərlər, dərsliklər və monoqrafiyalar nəşr edilmişdir.

Müasir dövrdə ərazinin ekoloji potensialın qiymətləndirilməsi, ətraf mühitin, ekosistemin və landşaftın müasir və gələcək vəziyyətinin qiymətləndirilməsində, neqativ ekoloji proseslərin müəyyənləşdirilməsi və onların tamamilə və ya qismən aradan qaldırılmasına dair konstruktiv tədbirlərin hazırlanması, eləcə də əhali arasında coğrafi biliklərin yayılmasının təşkili Cəmiyyətin əsas vəzifələrindən biridir. Keçən müddət ərzində Cəmiyyətin məktəb coğrafiyasına aid müzakirələrin intensivləşməsinin əsas səbəblərindən biri orta məktəblərin təhsil sistemində aparılan islahatlar zamanı coğrafiya fənninin tədrisində yaranmış problemlərlə bağlı Cəmiyyətin üzvləri olan müəllimlərinin çoxsaylı müraciətləri olmuşdur. Hazırda ölkəmizdə təhsilin müxtəlif pillələrində coğrafiyanın tədrisinin gücləndirilməsinin bir sıra səbəbləri vardır: "Ümumtəhsil müəssisələrində xüsusilə Azərbaycan coğrafiyasının tədrisinin vacibliyi;

- hər bir vətəndaşın öz ölkəsinin müstəqilliyini, ana dilini, tarixini və coğrafiyasını bilməsi əsas şərt olmalıdır. Ana dili, tarix-coğrafiya xalqın mövcudluq simvoludur. Yalnız dili və tarixi məlum olan, lakin coğrafiyası naməlum xalqlar vətənsizlərdir.
- dövlətlər arasında siyasi, iqtisadi, mədəni və elmi əlaqələrin güclənməsi fonunda baş verən Qloballaşma zamanı milliliyin qorunması şərti ilə dünyaya inteqrasiya prosesində dünya və ölkə coğrafiyasının dərindən öyrənilməsinin vacibliyi. Yer bizim ümumi "evimiz" və "vətənimizdir" təfəkkür tərzinin insanlarda formalaşması coğrafiyanın tədrisi ilə bilavasitə bağlıdır.
- hazırda bəşəri əhəmiyyətə malik olan qlobal, regional və məhəlli ekoloji problemlərin həllində coğrafiyanın rolunun artması;
- ölkəmizin dünyada mühüm geosiyasi və coğrafi mövqeyə malik olmasının üstünlüyünün aşılanması;
- regiondakı müasir hərbi-coğrafi vəziyyət, ölkənin təbii ehtiyatlarla zəngin ərazilərinin işğal altında olması;
- dövlətimizin və onun regionlarının sürətli iqtisadi-sosial inkişaf etdirilməsi siyasətinin coğrafi əsasları, təbliği və s.

Bu və ya digər kompleks amilləri nəzərə alaraq, Azərbaycan Coğrafiya Cəmiyyətinin Rəyasət heyəti ölkənin ümumtəhsil müəssisələrində, o cümlədən də bütün ali məktəblərində coğrafiyanın, xüsusilə də Azərbaycan coğrafiyasının tədrisini yaxşılaşdırmaq üçün dövlət səviyyəsində köklü təşkilatı tədbirlərin görülməsini, tədris saatlarının miqdarının əhəmiyyətli dərəcədə artırılmasını, ali məktəblərin coğrafiya fakültələrində, dövlət qulluqçularının hazırlanmasında "Ölkəşünaslıq" fənninin məcburi tədrisini, əyani vəsaitlərin hazırlanmasını, Azərbaycan təbiətini və iqtisadi inkişafını əks etdirən bir çox dillərdə tədris filmlərinin çəkilməsini, ali və orta ixtisas məktəblərinin bakalavr və magistratura pillələrində qəbul imtahanlarında bütün ixtisas qruplarında "Azərbaycan coğrafiyası"na aid bilikləri əks etdirən test tapşırıqları və suallardan mütləq istifadə olunmasını məqsədəuyğun hesab edir.

Təhsildə islahatlar ümumi təhsilin hər üç səviyyəsində (ibtidai, ümumi, orta, tam orta) tədris olunan fənlərin məzmunca yeniləşdirilməsi məsələlərini əhatə edir. Ən vacib yenilik ondan ibarətdir ki, fənlərin, eləcə də coğrafiya fənninin məzmunu, əsas etibarilə, nəticə yönümlü standartlar tətbiq edilməklə müəyyən olunur. Hazırda coğrafiya fənni üzrə kurikulum hazırlanmış və buna müvafiq dərsliklər yazılmışdır.

**Konfranslar və görüşlər.** Azərbaycan Coğrafiya Cəmiyyəti coğrafiya və ona yaxın olan elm sahələrində əldə olunmuş yeniliklərin ictimaiyyətə çatdırılması və onların innovativliyini artırmaq məqsədi ilə tez-tez respublika və beynəlxalq əhəmiyyətli tədbirlərin təşkilatçısı kimi çıxış etmişdir.

Son zamanlar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin regionların sosial-iqtisadi inkişafına həsr olunmuş fərman və sərəncamlarından irəli gələn vəzifələrin həllinə kömək məqsədi ilə Azərbaycanın ayrı-ayrı regionlarında həmin ərazinin regional inkişafının coğrafi problemlərinə həsr olunmuş elmi tədbirlər keçirmişdir. Təcrübə göstərmişdir ki, belə konfransların, "dəyirmi masa"ların, ictimaiyyətlə görüşlərin keçirilməsinə regionlarda xeyli maraq vardır. Bunu nəzərə alan Coğrafiya Cəmiyyətinin rəhbərliyi cəmiyyətin 80 illik yubileyinin və növbəti X qurultayın 2019-cu il 25-26 may tarixlərində Qəbələ rayonunda keçirilməsini qərarlaşdırmışdır.

AMEA akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun 70 illik yubileyi ilə əlaqədar Cəmiyyətin fəal iştirakı ilə 2015-ci ilin 15-17 may tarixlərində Şamaxı, İsmayıllı və Qəbələ şəhərlərində yerli icra hakimiyyətlərinin fəal dəstəyi ilə keçirilmiş tədbirlərdə Azərbaycan coğrafiya elminin əldə etdiyi uğurlar ictimaiyyətə çatdırılmışdır.

Maraqlı tədbirlərdən biri də 2015-ci il 22 may tarixində "Ulu öndər Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü və AMEA akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun yaranmasının 70 illiyi" mövzusunda Naxçıvan şəhərində keçirilmişdir. Bundan başqa, 2016-cı ilin sentyabr ayının 13-14-də Azərbaycan Respublikasında demoqrafik inkişaf, əhali məskunlaşmasının perspektivləri və regional problemlər" mövzusunda Şəki şəhərində elmi konfrans keçirilmişdir. Konfransda regionların davamlı inkişafının müasir demoqrafik vəziyyəti, o cümlədən əhali məskunlaşması ilə əlaqəsi, həmçinin texnogen və təbii mənşəli fəlakətlərin risk və təhlükəsinə dair geniş müzakirələr aparılmışdır.

Azərbaycan Coğrafiya Cəmiyyəti 2017-ci ilin 16-17 iyun tarixlərində görkəmli alim, akademik Həsən Əliyevin 110 illiyinə həsr olunmuş "İnsan və ətraf mühit münasibətləri" mövzusunda Lənkəran şəhərində konfrans keçirmişdir. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti, Respublika Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Ekologiya və Təbii sərvətlər Nazirliyi, Dövlət Meliorasiya və Su Təsərrüfatı Agentliyi, Dövlət Statistika Komitəsi və Azərbaycan Coğrafiya Cəmiyyətinin də fəal dəstəyi ilə elm və praktikanın vəhdəti, eləcə də bunlar arasında yarana biləcək boşluq və çatışmazlıqlar haqqında maraqlı tərəflərin təklif və arzularını öyrənmək, onları ümumiləşdirmək, layihə hazırlanmasında səmərəli istifadə etmək məqsədilə 2018-ci ilin 16 aprel tarixində Bakı şəhərində "Qafqazın dağlıq regionlarında iqlim dəyişmələrinə uyğunlaşma imkanlarının gücləndirilməsi, elm və təcrübə arasında qarşılıqlı əlaqələrin optimallaşdırılması" mövzusunda tədbir təşkil edilmişdir. Bundan başqa, Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə "Bazar iqtisadiyyatı şəraitində torpaq idarəçiliyi: nailiyyətlər və müasir çağırışlar" mövzusunda 7 may 2018-ci il tarixində keçirilmiş tədbir də torpaq islahatları və torpaqlardan istifadənin modelləşdirilməsi baxımından olduqca maraqlı olmuşdur.

Cəmiyyət bundan sonra da regionların təbii ehtiyatlarından istifadənin optimallaşdırılması, sosial-iqtisadi və demoqrafik inkişafın müxtəlifyönlü coğrafi problemlərinin həlli istiqamətində dövlətimiz tərəfindən irəli sürülmüş layihələrin reallaşdırılması istiqamətində təşəbbüslərini davam etdirəcəkdir.

Azərbaycan Coğrafiya Cəmiyyətinin **Beynəlxalq əlaqələri** də çoxşaxəli və rəngarəng olmuşdur. Yarandığı ilk illərdən başlayaraq Coğrafiya Cəmiyyəti ya təşkilat kimi, ya da üzvlərin iştirakı ilə beynəlxalq elmi əməkdaşlığın genişlənməsində maraqlı olmuşdur. Bu illər ərzində Coğrafiya Cəmiyyəti Rusiya Federasiyası, Ukrayna, Belarus, Gürcüstan, Qazaxıstan, Almaniya, İtaliya, Serbiya, İran, Türkiyə, Fransa, Hindistan, Çin, ABŞ və s. ölkələrin Coğrafiya cəmiyyətləri və ya aparıcı coğrafiyaçı alimləri ilə birgə elmi tədqiqatların həyata keçirilməsində iştirak etmişdir. Qeyd edək ki, Azərbaycan Coğrafiya Cəmiyyətinin beynəlxalq əlaqələri ən müxtəlif formalarda - simpoziumlar, konfranslar, birgə elmi əməkdaşlığın niyyət protokollarının imzalanması, dəyirmi masalar, elmi ekspedisiyaların təşkili, birgə layihələrin həyata keçirilməsi və s. ilə həyata keçirilmişdir. Bu işlərin nəticəsidir ki, 2012-ci ildən Azərbaycan Coğrafiya Cəmiyyəti bu sahənin əsas beynəlxalq nüfuzlu təşkilatı olan Beynəlxalq Coğrafiya Konqresinin tamhüquqlu üzvüdür. Azərbaycan Coğrafiya Cəmiyyətinin beynəlxalq əlaqələri son illər daha da intensivləşmiş, bir sıra nüfuzlu Coğrafiya Cəmiyyətləri ilə birgə elmi əməkdaşlıq haqqında sənədlərə qol çəkilmişdir. Rusiya Coğrafiya Cəmiyyəti ilə Azərbaycan Coğrafiya Cəmiyyəti arasında 31 oktyabr 2014-cü il tarixində Moskva şəhərində birgə əməkdaşlıq haqqında 20 maddəlik sənəd imzalanmışdır.

Bundan başqa, eyni tipli sənəd Qazaxıstan Milli Coğrafiya Cəmiyyəti ilə də 17 sentyabr 2015-ci ildə imzalanmışdır. Bu əməkdaşlığın nəticəsidir ki, qeyd olunan ölkələrin coğrafiyaçıları arasında sıx əlaqələr bu gün də davam edir.

Müxtəlif coğrafi problemlərə həsr olunmuş beynəlxalq konfransların təşkili Cəmiyyətin işinin əsas tərkib hissələrindən biri olmuşdur. "Xəzər dənizi regionunun coğrafi problemləri və ərazinin dayanıqlı inkişafına nail olmanın yolları" mövzusunda 15-20 sentyabr 2014-cü il tarixində təşkil edilmiş sessiya və konfransın işində 200-dən çox məruzəçi iştirak etmişdir. Burada Xəzər regionunun fiziki, sosial-iqtisadi coğrafi problemləri, Avrasiya məkanında coğrafi ərazilərin dayanıqlı inkişafının problemləri kompleks şəkildə müzakirə edilmişdir. Sonra qeyd olunan regionun dayanıqlı inkişafına dair "Bakı bəyannaməsi" qəbul edilmişdir.

"Müasir qlobal dəyişmələrə geo və təbii - təsərrüfat sistemlərinin adaptasiyası problemləri" mövzusunda 2015-ci ilin 17-18 sentyabrında Bakıda təşkil edilmiş Beynəlxalq elmi-praktiki konfransın işində Rusiya, Türkiyə, Qazaxıstan, Gürcüstan, Serbiya və s. xarici ölkələrdən olan alim - mütəxəssislər iştirak etmişlər. Konfransın sonunda bir qrup xarici alimlərlə birgə Böyük Qafqazın cənub-şərq yamacında birgə çöl tədqiqatları aparılmış və fikir mübadiləsi edilmişdir.

Son illər Azərbaycan və Türkiyə coğrafiyaçı alimlər və mütəxəssislər arasında əlaqələrin intensivləşməsi kimi yadda qalmışdır. Birinci Azərbaycan-Türkiyə coğrafiya günləri 2017-ci ilin 2-5 may tarixlərində Bakı şəhərində keçirildi. Bu günlər ərzində hər iki qardaş ölkənin alimləri apardıqları elmi tədqiqatların istiqamətləri, eləcə də coğrafi sistemlərin öyrənilməsində müasir elmi-tədqiqat metodlarının tətbiqinin prespektivləri müzakirə edilmişdir. İkinci Türkiyə-Azərbaycan coğrafiya günləri 24-27 oktyabr 2017-ci il tarixlərində Türkiyə Cümhuriyyətinin İzmir şəhərində Egey Universitetinin təşkilatçılığı ilə keçirildi. Burada Azərbaycan Coğrafiya Cəmiyyəti üzvlərinin müxtəlif mövzulara aid məruzələri maraqla qarşılanmışdır. Məhz burada akademik R.M.Məmmədov çoxdan arzusunda olduğu "Türk dünyası coğrafiyası" çoxcildliyinin yaradılması ideyasını irəli sürüb və bu təşəbbüs razılıqla qarşılanmışdır.



*Səudiyyə Ərəbistanı Krallığı Coğrafiya Cəmiyyəti üzvləri Bakıda.*

Səudiyyə Ərəbistanı Krallığı Coğrafiya Cəmiyyəti üzvlərindən ibarət nümayəndə heyətinin Azərbaycana səfəri zamanı (22 oktyabr 2017-ci il) hər iki ölkənin coğrafiyaçıları birgə seminarı keçirilmiş, fikir mübadiləsi aparılmış və gələcək əməkdaşlığın yolları müzakirə edilmişdir.

Coğrafiya cəmiyyətinin təşkilatçılığı, "LightHouse" şirkətinin sponsorluğu ilə Avstriyadan dəvət olunmuş Graz Texnologiya Universitetinin doktoru Andre Baldermanın rəhbərliyi altında Coğrafiya İnstitutunda gənc alim və mütəxəssislər, eləcə də tələbələr üçün silsilə seminar məşğələlər təşkil olunmuşdur.

Azərbaycan və Rusiya Federasiyasının müasir geopolitik, geoiqtisadi, geodemoqrafik və geomədəni proseslərdəki vəziyyətini araşdırma, ictimai coğrafiyanın inkişaf faktorları və prioritetlərini müəyyənləşdirmək, bu istiqamətdə təkliflərin hazırlanması, hər iki ölkə Coğrafiya Cəmiyyətlərinin birgə həyata keçirdiyi beynəlxalq konfransda müzakirə edilmişdir (10-14 may 2018-ci il). "Azərbaycanda və Rusiyada ictimai coğrafiya və XXI yüzilliyin inkişaf prioritetləri" adlı tədbirdə 120-dən çox maraqlı məruzə dinlənilmişdir.

Sürətlə dəyişən və yeni keyfiyyətlər alan təbii və sosial-iqtisadi sistemlərin coğrafi problemlərinin müasir tədqiqat metodları ilə öyrənilməsi və bunların ictimailəşdirilməsi istiqamətində atılmış addımlardan biri də "Avrasiya C1S konfransı - 2018" adlı beynəlxalq tədbirin Bakıda keçirilməsi olmuşdur (13-18 sentyabr 2018-ci il). Bu beynəlxalq tədbirdə Azərbaycan və Türkiyə ilə yanaşı, Rusiya, ABŞ, Qazaxıstan, Moldova, Nepal, İran, Gürcüstan və digər ölkələrdən gəlmiş elm adamları və mütəxəssislər zəmanəmizdə müxtəlif sahələrdə CİS texnologiyalarının tətbiqinin önəmini və alınmış nəticələrin elmi dəyərinin yüksək olduğu qeyd edilmişdir.

Coğrafiya Cəmiyyətinin əsas vəzifələrindən biri də **ictimaiyyətlə görüşlərin** təşkil edilməsidir. Bu iş cəmiyyətdə ənənəyə çevrilmişdir. Keçən əsrin 70-80-ci illərində Coğrafiya Cəmiyyətinin rəhbərliyinin, həmçinin üzvlərinin regionlara ekspedisiyaları və ezamiyyətləri zamanı ayrı-ayrı rayonlarda məktəblilər və yerli ictimaiyyətlə görüşlərin keçirilməsi təşkil edilirdi. Son zamanlar da bu sahədə bir sıra uğurlar əldə edilmişdir. Coğrafiya İnstitutunun 70 illik yubileyi ilə əlaqədar olaraq Şamaxı, İsmayıllı və Qəbələ şəhərlərində coğrafiyaçıların rayon ictimaiyyəti nümayəndələri ilə görüşləri maraqlı olmuşdur (15-16 may 2015-ci il).

Keçən dövr ərzində Cəmiyyət bir sıra yerli və beynəlxalq **qrant layihələrinin** həyata keçirilməsində də iştirak etmişdir. Cəmiyyətin prezidenti, akademik R.Məmmədov ilk dəfə Azərbaycanda landşaft planlaşdırılmasına aid beynəlxalq qrant layihəsini yerinə yetirmişdir. Landşaft planlaşdırılmasının birinci layihəsi Şirvan Milli Parkında (2004-cü il), ikinci layihəsi isə Samur-Yalama Milli Parkında (2008-ci il) həyata keçirilmişdir. Bundan başqa, SOCAR şirkətinin dəstəyi ilə Xəzər dənizində neftlə çirklənmənin yayılmasının riyazi modelləşdirilməsi istiqamətində layihə də uğurla yerinə yetirilmiş və bir sıra mühüm nəticələr alınmışdır.

**Nəşr fəaliyyəti.** Keçən dövr ərzində Cəmiyyətin əsərlər toplusunun 20-dən çox cildi nəşr edilmiş və bu əsərlərdə 2000-dən çox məqalə çap edilmişdir. Hər bir toplu coğrafiyanın ən mühüm, aktuallıq kəsb edən müasir istiqamətlərinə həsr edilmişdir. Nəşr fəaliyyəti sahəsində Cəmiyyətin ən uğurlu işlərindən biri də 2015-ci ildə Azərbaycan coğrafiya elmi tarixində ilk dəfə akademik R.M.Məmmədovun təşəbbüsü ilə "Coğrafiya və təbii resurs" jurnalı təsis edilməsidir. Qeyd olunan dövrdə nəşrimiz qısa müddət ərzində ölkə daxilində və xarici ölkələrdə tədqiqat aparan alimlərin diqqətini özünə çəkə bilmişdir.

**Ekoturlar və ekspedisiyalar.** Coğrafiya Cəmiyyətinin təşkil etdiyi davamlı ekoturlar ölkə ictimaiyyətinin müxtəlif təbəqələri tərəfindən maraqla qarşılanmış və populyarlıq qazanmışdır. Son zamanlar Şirvan, Hirkan, Altıağac və Abşeron Milli parklarına, Qobustan qoruğuna, palçıq vulkanlarına, Quba, Qusar, Masallı və s. inzibati rayonların təbiət abidələrinə təşkil edilmiş 15-dən çox ekoturlarda tələbələr, məktəblilər, müəllimlər və s. həvəslə iştirak etmişlər. Cəmiyyət üzvlərinin hər il yay mövsümündə regionlara təşkil edilmiş elmi ekspedisiyaları da ölkəmizin təbiətinin coğrafi cəhətdən dərk edilməsi baxımından dəyərlidir.

Azərbaycan Coğrafiya Cəmiyyətinin üzvlərindən akademik B.Ə.Budaqov SSRİ Coğrafiya Cəmiyyətinin Prejevalski adlı qızıl medalına, N.Ş.Şirinov, Ə.V.Məmmədov Azərbaycan SSR, akademik R.M.Məmmədov, AMEA-nın müxbir üzvü E.K.Əlizadə, c.ü.f.d., dosent M.S.Həsənov və c.ü.e.d. Z.Eminov isə Azərbaycan Respublikası Dövlət mükafatlarına layiq görülmüşlər. E.K.Əlizadə və S.Tarixazər Rusiya Coğrafiya Cəmiyyətinin "Billur kompas" mükafatlarını almışlar.

Bu il 80 illik yubileyini qeyd edən Azərbaycan Coğrafiya Cəmiyyəti dövlətimizin demokratik və dinamik inkişafı yolunda bundan sonra da coğrafi tədqiqatların daha səmərəli şəkildə genişləndirilməsi istiqamətində yaradıcılıq təşəbbüslərini artıracaqdır. Ulu öndər Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyevin respublikamızın və onun regionlarının sosial-iqtisadi və davamlı inkişafı istiqamətində göstərişlərinin yerinə yetirilməsində daha uğurlu elmi nəticələrin əldə olunmasında Coğrafiya Cəmiyyəti yaxından iştirak edib öz elmi töhfəsini verəcəkdir.

**Ramiz MƏMMƏDOV,**
**Azərbaycan Coğrafiya Cəmiyyətinin prezidenti, akademik.**

# Kiyevdə mütəfəkkir-şair İmadəddin Nəsiminin heykəlinin rəsmi açılış mərasimi keçirilib







**Ukraynanın paytaxtı Kiyev şəhərində Azərbaycan xalqının çoxəsrlik ənənələrə malik bədii və fəlsəfi fikrində dərin iz qoymuş mütəfəkkir-şair İmadəddin Nəsiminin heykəlinin rəsmi açılış mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Ukraynadakı səfirliyinin sifarişi ilə Kiyevdə mərkəzi parkların birində ucaldılan İmadəddin Nəsiminin heykəlinin açılış mərasimində Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov, Kiyev şəhər meri Vitali Kliçko, diplomatik korpusların nümayəndələri, soydaşlarımız, şəhər sakinləri və yerli KİV təmsilçiləri iştirak ediblər.

Tədbir Azərbaycan və Ukraynanın dövlət himnlərinin səsləndirilməsi ilə başlayıb. İlk öncə tədbirin aparıcısı İmadəddin Nəsiminin yaradıcılığı haqqında geniş məlumat verdikdən sonra Kiyev şəhər meri Vitali Kliçko çıxışına mütəfəkkir-şairimizin sitatları ilə başlayıb. O bildirib ki, Kiyevin mərkəzi hissəsində Nəsimi kimi tanınmış bir şəxsin heykəlinin ucaldılması sevindirici haldır. “Çox sevinirəm ki, Ukraynanın paytaxtında Azərbaycan xalqının böyük oğlunun heykəli açılıb. Bu, bir daha Ukrayna və Azərbaycan xalqlarının bir-birinə verdiyi dəyərin nəticəsidir. Hər iki ölkənin dövlət himnləri səslənəndə, ukraynalı və azərbaycanlılar əllərini ürəklərinin başına qoydu. Bu onu göstərir ki, hər bir azərbaycanlı Ukraynanı, hər bir ukraynalı isə Azərbaycanı öz evi kimi qəbul edir”, - deyə Kliçko əlavə edib.

Hələ ümummilli lider Heydər Əliyevin Azərbaycan və Ukrayna arasında əməkdaşlığın inkişafına böyük töhfə verdiyini vurğulayan Bakı şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov bildirib ki, bu gün bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

“Bakıda Şevçenko, Kiyevdə ulu öndər Heydər Əliyev, Müslüm Maqomayev və indi də İmadəddin Nəsiminin heykəlinin ucaldılması hər iki ölkə arasında dost, qardaş münasibətlərin bariz nümunəsidir”, - deyə E.Əzizov əlavə edib.

O qeyd edib ki, Azərbaycan və Ukrayna arasında strateji münasibətlər bundan sonra da davam etdiriləcəkdir.

Heykəlin müəllifi Ukraynanın Xalq rəssamı, tanınmış heykəltəraş həmyerlimiz Seyfəddin Qurbanov isə çıxışında heykəlin hazırlanmasında göstərdiyi təşəbbüs və köməyə görə səfir Azər Xudiyevə təşəkkürünü bildirib. İmadəddin Nəsimi kimi dahi bir şəxsiyyətin heykəlinin müəllifi olmasından qürur hissi keçirdiyini vurğulayıb.

İmadəddin Nəsiminin heykəlinin açılış mərasimində iştirak etdiklərinə görə, Bakı şəhər İcra Hakimiyyətinin başçısı və Kiyev merinə təşəkkürünü bildirən səfir Azər Xudiyev deyib ki, Prezident İlham Əliyevin Sərəncamı ilə 2019-cu il ölkəmizdə “Nəsimi ili”nin elan edilməsi çərçivəsində bir sıra kütləvi tədbirlər keçirilir. Səfirin sözlərinə görə, İmadəddin Nəsiminin heykəlinin ucaldılması Azərbaycanı dünyada daha da tanıdacaqdır.

Daha sonra şair Şəhriyar Der Gerani İmadəddin Nəsiminin qəzəllərini səsləndirib. Bundan sonra Nəsiminin heykəlinin üzərindəki ağ örpək açılıb.

Xatırladaq ki, heykəl Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2019-cu ilin ölkəmizdə “Nəsimi ili”nin elan edilməsi çərçivəsində ucaldılıb.

**AZƏRTAC**

*Gürcüstan MOK-un prezidenti:*

## Azərbaycan dünyanın ən təhlükəsiz ölkələrindən biridir

**Azərbaycan bu gün təkcə Cənubi Qafqaz regionunda deyil, dünyada idman ölkəsi kimi tanınır. Bakı artıq beynəlxalq idman yarışlarının keçirildiyi məkana çevrilib.**

Bu fikirləri AZƏRTAC-a müsahibəsində Gürcüstan Milli Olimpiya Komitəsinin (MOK) prezidenti, sərbəst güləş üzrə beşqat dünya çempionu, Olimpiya Oyunları çempionu Leri Xabelov söyləyib.

O deyib: “Azərbaycanda idmana dövlət səviyyəsində çox yüksək diqqət göstərilir. Bu da ölkədə idmanın inkişafında, normal cəmiyyətin və sağlam gəncliyin formalaşmasında mühüm rol oynayır. Mən çox şadam ki, dost və qardaş Azərbaycan bu gün idman ölkəsi kimi tanınır. İkiqat sevincim isə onunla bağlıdır ki, Bakı UEFA Avropa Liqasının final qarşılaşmasına ev sahibliyi edəcək”.

Gürcüstan MOK-un prezidenti son vaxtlar bəzi insanların Azərbaycanı tənqid etməsini pisləyib və bunun paxıllıq hissindən irəli gəldiyini söyləyib: “Bəzi qüvvələr zaman-zaman Azərbaycanın və Gürcüstanın əleyhinə qarayaxma kampaniyaları aparırlar. Onların bu cəhdləri hər zaman olduğu kimi, bu dəfə də boşa çıxdı. Azərbaycan dünyanın ən təhlükəsiz ölkələrindən biridir və biz idman ictimaiyyətinin nümayəndələri buna şahidik”.

L.Xabelov Avropa Gənclərinin Yay Olimpiya Festivalının iyul ayında Bakıda keçiriləcəyini də yüksək qiymətləndirib. Bildirib ki, Azərbaycanın dinamik inkişafı bu cür beynəlxalq idman yarışlarını yüksək səviyyədə təşkil etməyə imkan verir. “Biz azərbaycanlı dostlarımızın yüksək təşkilatçılıq bacarığını artıq görmüşük. Azərbaycan beynəlxalq səviyyəli, mötəbər idman yarışlarını yüksək səviyyədə keçirməklə bunu dəfələrlə sübut edib”, - deyə L.Xabelov əlavə edib.

MOK prezidenti UEFA Avropa Liqasının mayın 29-da Bakı Olimpiya Stadionunda keçiriləcək final oyununu Gürcüstandan olan azarkeşlərin də izləyəcəyini vurğulayıb.

Xatırladaq ki, finalda Londonun “Arsenal” və “Çelsi” komandaları qarşılaşacaq. Matç saat 23:00-da başlayacaq.

**AZƏRTAC**

# Barama İnnovasiya və Sahibkarlıq Mərkəzi artıq Lənkəranda!

*Barama İnnovasiya və Sahibkarlıq Mərkəzinin yeni ofisi tələbələrin istifadəsinə verildi*

**Lənkəran Dövlət Universiteti nəzdində Azercell-in Barama İnnovasiya və Sahibkarlıq Mərkəzinin yeni ofisinin açılış mərasimi keçirilib. “Akhundoff Group” şirkəti tərəfindən ən müasir avadanlıqla təchiz olunan ofisdə gənclər üçün sahibkarlıq və informasiya texnologiyaları mövzularını əhatə edən təlimlərin keçirilməsi, onlara müxtəlif layihələrin hazırlanmasında yardım edilməsi nəzərdə tutulub.**

Tədbirdə çıxış edən Azercell-in Korporativ Ünsiyyət şöbəsinin rəhbəri Nigar Şıxlinskaya Lənkəran Dövlət Universitetinin rəsmilərinə və “Akhundoff Group” şirkətinin rəhbərliyinə bu təşəbbüsü dəstəklədiklərinə görə təşəkkür edib. Azercell tərəfindən ölkədə sahibkarlıq mühitinin inkişafına töhfə vermək məqsədilə 2009-cu ildə yaradılan Barama İnnovasiya və Sahibkarlıq Mərkəzinin fəaliyyətindən bəhs edən Nigar Şıxlinskaya, yeni açılan ofisin gənclərə bu sahədə əvəzsiz təcrübə bəxş edəcəyini söyləyib. O, həmçinin regional Barama ofislərinin paytaxt və bölgə universitetlərində təhsil alan tələbələri startap sahəsində bərabər inkişaf imkanları ilə təmin edəcəyini vurğulayıb. Barama İnnovasiya və Sahibkarlıq Mərkəzinin rəhbəri İmran Bağırov öz nitqində yeni istifadəyə verilən mərkəzin əsas məqsədinin kənd təsərrüfatı və texnologiyanı birləşdirmək, bu sahədə ixtisaslı kadrlar, proqramçılar yetişdirmək olduğunu bildirib.




Qeyd etmək istərdik ki, Azercell hər zaman gənclərin peşəkar inkişafına və onların mütərəqqi ideyalarının həyata keçirilməsinə xüsusi diqqət ayırıb. Bu istiqamətdə Azercell-in təşəbbüsü ilə yaradılan ölkənin ilk biznes inkubatoru - Barama İnnovasiya və Sahibkarlıq Mərkəzinin müstəsna rolu olub. Azercell və Paşa Bankın dəstəyi ilə mərkəz fəaliyyəti boyunca bir çox layihələrin müstəqil şirkətə çevrilməsinə yardım edib, müxtəlif tədbirlər, seminarlar və təlimlər keçirib. ■

## UEFA-nın prezidenti Avroliqanın final oyununun Bakıda keçirilməsi qərarını müdafiə edib




**UEFA-nın prezidenti Aleksander Çeferin Almaniyanın “Der Spiegel” jurnalına müsahibəsində Avroliqanın final oyununun Bakıda keçirilməsi qərarını müdafiə edib.**

AZƏRTAC xəbər verir ki, Çeferin final oyunu fonunda Azərbaycanda insan haqlarının vəziyyəti haqqında deyilənlərə münasibət bildirərkən qeyd edib ki, bu, digər Avropa ölkələrinə də aiddir.

UEFA prezidenti Mxitaryanın “təhlükəsizlik” məsələsinə görə Bakıya gəlməməsindən də danışıb. O bildirib ki, Mxitaryanın fikirləri Fransada “Avro-2016”nın keçirildiyi zaman dedikləri ilə paralellik təşkil edir. “Terror hücumlarının hədəfində olan Fransada Avropa çempionatını təşkil etməyi bacardıq. Futbol bu cür gərginliklərə görə dayandırılsa, gələcəkdə heç nə təşkil edə bilməyəcəyik”, - deyə UEFA prezidenti qeyd edib.

**AZƏRTAC**

# “Biotibbi texnologiyalar mühəndisliyi” ixtisasının böyük perspektivi var

**Hazırda Azərbaycanın əmək bazarında yüksək kvalifikasiyalı mütəxəssislərə böyük ehtiyac var. Qeyri-neft sektorunun inkişafı, iqtisadiyyatın şaxələnməsi, yeni istehsal müəssisələrinin açılması, dünyada baş verən texniki yeniliklər ölkəmizdə yeni iş yerlərinin yaranmasına səbəb olub. İstehsalat müəssisələri peşəkar mütəxəssislərə olan ehtiyacı ali məktəb məzunları ilə ödəməyə çalışırlar.**

2017/2018-ci tədris ilindən etibarən istehsalat təcrübəsində bir sıra yeniliklər tətbiq edilməyə başlayıb. Təhsil Nazirliyinin müvafiq əmri ilə bütün ali məktəblərin 4-cü kursunda oxuyan tələbələr tədris ilinin ikinci semestri boyu 14 həftəlik istehsalat təcrübəsinə göndərilir. Azərbaycan Dövlət Neft və Sənaye Universiteti tələbələrin istehsalat təcrübəsinin uğurla keçməsi üçün fəaliyyət göstərir. Müəssisələrlə qurulmuş əlaqələr sayəsində hazırda universitetin tədris ilində 1984 nəfər 4-cü kurs tələbəsi 127 müəssisədə təcrübə keçir. Bundan əlavə, universitetdə “Gündəlik təcrübə” proqramı icra olunur. Proqramın məqsədi tələbələrin gələcək buraxılış işi üzərində daha erkən vaxtdan çalışmasına şərait yaratmaq, həmçinin aşağı kurslardan onları istehsal müəssisələri ilə tanış etməkdir. “Gündəlik təcrübə”yə əsasən tələbə günün birinci yarısı oxuyursa, təcrübəyə günün ikinci yarısı gedir. Əvvəlcə tələbələr təxminən 20 gün ərzində müəssisə ilə tanış olur, onlara təhlükəsizlik məsələləri izah edilir. Sonrakı mərhələdə müəssisə onu qane edən tələbələri seçir. Seçilmiş tələbələr həftədə iki dəfədən az olmayaraq müəssisədə olur, hansısa problemin həllinə yönəlmiş mövzu üzərində işləyirlər. Bu müddətdə tələbə müəyyən miqdarda əməkhaqqı da alır. Əgər tələbə özünü daha yaxşı tərəfdən göstərməyi bacarsa müəssisə ona daha artıq - yarım iş günündə işləməyi təklif edib və daha artıq məvacib verə bilər. Bu halda universitet tələbənin təhsilini davam etdirməklə işləməsinə şərait yaradır.

“Gündəlik təcrübə” proqramı çərçivəsində praktikada olan tələbələrdən biri də mənəm... “Biotibbi texnologiyalar mühəndisliyi” ixtisası üzrə 3-cü kurs tələbəsiyəm. Artıq öz ixtisasım üzrə işləməyə başlamışam. Proqram çərçivəsində bir neçə klinikada təcrübə keçmişəm və bu müddət ərzində ixtisasımla bağlı çox şey öyrənmişəm. Ötən tədris ilində ilk dəfə ADNSU-nun rektoru, professor Mustafa Babanlının məktubu ilə “Gündəlik təcrübə” çərçivəsində müxtəlif müəssisələrdə oldum. “Arash” Medical Company, “Ömür”, “Nərgiz” klinikalarında təxminən 6 ay təcrübə keçdim. Eyni zamanda özüm də dərslik və internet vasitəsilə ixtisasım haqqında daha çox şey öyrənməyə çalışırdım. “Arash” şirkətində olanda gördüm ki, oradakı mütəxəssislərin əksəriyyəti xarici ölkələrdə təcrübə keçiblər. Mən də qərara gəldim ki, xaricdə də təcrübə keçim. Bir müddət araşdırma apardım. “Arash” şirkətindən də mənə verilən məsləhətlə Türkiyədə “Sanitas Medical Center” ilə əlaqələr qurdum. Bir müddət danışıqlardan sonra onlar məni təcrübə üçün Türkiyəyə dəvət etdilər. ADNSU rəhbərliyinin dəstəyi ilə mən bu ilin yanvar ayında 45 günlük təcrübə üçün Türkiyəyə yollandım.

İlk həftələrdə mənə təcrübəçi kimi işi izah etdilər, növbəti mərhələdə isə işçi kimi çalışmağa başladım. Orada olduğum müddətdə Türkiyə və Almaniya şirkətlərinin sertifikatlarını aldım. “Sanitas Medical Center” Almaniyanın 7 şirkətinin Türkiyədəki rəsmi distribütoru olduğuna görə mənə o şirkətlərin sertifikatları verildi. Son 15-20 gündə klinikalara özüm tək gedirdim. Cihazların təmiri və s. işlərə baxırdım. Əsas onu gördüm ki, orada bizim ixtisasın özü müxtəlif ixtisaslaşmalara bölünüb. Yəni cihazın diaqnostikası, təmiri və s. Orada cihazları çox yaxşı öyrədirdilər. Həftədə bir dəfə imtahan olurdu. “Sanitas Medical Center” Bakıda ofis açmaq niyyətindədir. Ona görə də mənə xüsusi diqqətlə yanaşıb, daha yaxşı öyrətməyə çalışırdılar. Şirkətdə, həmçinin ADNSU ilə də əməkdaşlıq əlaqələrinin qurulmasında maraqlı olduqlarını deyirdilər. Ümumiyyətlə, Türkiyədə olduğum müddətdə universitet həmişə mənə dəstək olub. Cihazqayırma mühəndisliyi kafedrasının dosenti Lalə Bəkirova daim mənimlə əlaqə saxlayıb, tərcübənin necə keçdiyi ilə maraqlanırdı.

Hazırda isə “Arash” şirkətində təcrübəçi kimi işə başlamışam. Əsas məqsədim məzun olana qədər ixtisasım haqqında daha çox təcrübə yığmaqdır. Klinikalarda təcrübə yığmaq çox vacibdir. Klinikalara və ya hər hansı bir cihazın satışı üçün təqdimata gedəndə mühəndisi çox sorğu-sual edirlər. Cihazlara böyük vəsait xərcləndiyi üçün hər xırda detalına kimi soruşurlar. Bunun üçün də çox məlumatlı olmaq lazımdır. Həm mühəndis, həm də tibbi biliklərin olması vacibdir. Çünki hərdən olur ki, tibbi suallar verirlər, bilməyəndə artıq cihazın keyfiyyəti haqqında da şübhə ilə yanaşa bilərlər. Əsas hədəflərimdən biri də tibbi biliklərə yiyələnməkdir. Başqa sahələrdə istifadə olunan cihazlarda alınan nəticələr eyni olur. Amma tibbi cihazlarda isə xəstədən-xəstəyə nəticələr dəyişir. Yəni hər xəstənin verdiyi nəticələr ayrı olur. Ona görə tibbi bilik vacibdir. Sonra elektronika, proqramlaşdırma, ən vacibi isə praktikadır. Elə şeylər var ki, nəzəri hissəsini oxuyursan, amma o cihazı canlı görməsən heç bir əhəmiyyəti yoxdur. Nəzəriyyə ilə təcrübə paralel aparılmalıdır. “Arash”da əvvəl klinikalara mühəndislərlə gedirdim, amma artıq işi öyrənmişəm deyə tək gedirəm.

Universitetdə də bəzi işlər görməyi planlaşdırıram. İyul ayında Cihazqayırma mühəndisliyi kafedrası beynəlxalq konfrans keçirəcək. Konfransda bir bölmə də “Biotibbi texnologiyalar mühəndisliyi” üçün ayrılıb. Bu konfransda iştirakçı kimi klinikaların nümayəndələrini dəvət edəcəyik. Həmçinin “Sanitas Medical Center”i də dəvət etmişik. Onların burada təqdimatı, eyni zamanda universitet rəhbərliyi ilə görüşü nəzərdə tutulub.

Bizim ixtisasla bağlı gələcəkdə universitetdə kurs da yaradıla bilər. Bu sahə üzrə ADNSU-nun bir neçə məzunu var ki, ölkədə tanınmış mütəxəssis hesab olunur. Onları bir araya gətirib universitetdə təlimlər təşkil edib, ixtisasın ayrı-ayrı bölmələri üzrə kurslar keçirilə bilər.

“Biotibbi texnologiyalar mühəndisliyi” ixtisasının ölkəmizdə perspektivi çoxdur. Təcrübədə olduğum istənilən müəssisədə ixtisaslı mütəxəssisə ehtiyac var. Hətta şirkətlər tələbəni işə götürüb öz hesabına xarici ölkələrə praktikaya da göndərməyə hazırdırlar.

Hazırda bizim 40 nəfərdən çox tələbəmiz müxtəlif yerlərdə təcrübə keçirlər. Amma bununla kifayətlənmək olmaz. Daim internetdən araşdırmalar aparmaq, daha çox məlumat almaq lazımdır. Əvvəllər tələbələr ixtisası yalnız universitetdə öyrənmək istəyirdilər, indi başa düşüblər ki, praktiki bilik çox əhəmiyyətlidir, öz üzərində işləməlisən, axtarışda olmalısan. Türkiyədə olanda universitetdə öyrəndiklərim çox kömək etdi. Ən çox da elektronika sahəsindən.

**Rəvan QƏMBƏROV.**

# Second National Water Supply and Sanitation Project

**Invitation to Quote (ITQ) - SNWSSP-PE-01/2019**

**Date: May 25, 2019**

**Project Title:** The Supply of Practical Equipment for "Azersu" OJSC Training and Education Center- Hovsan Aeration Plant under the Second National Water Supply and Sanitation Project financed by the World Bank and the Republic of Azerbaijan

**Source of Funding:** The Republic of Azerbaijan has received financing from the World Bank toward the cost of the Second National Water Supply and Sanitation Project, and intends to apply part of the proceeds for consulting services. Source of funding is 8381 AZE Loan agreement financed by World Bank.

**Contract Ref:** SNWSSP-PE-01/2019, Supply of Practical equipment for Training and Education Center (TEC) of Azersu OJSC"

Dear Supplier,

1. You are invited to submit your price quotation(s) for the supply of the following item:

**Supply of Practical equipment for Training and Education Center (TEC) of Azersu OJSC"**

**The documents to be submitted together with the price quotation:**

- Written request to participate in the quotation;
- Copies of Bidder's initial registration documents certified in respective manner (full name of the Bidder, juridical status, by mentioning name of the country, where its charter was registered and its main type of activity) and bank details.
- Reference issued from the respective tax and social protection body on not having overdue obligations for taxes, or other compulsory payments.
- Financial report or bank reference confirmed by appropriate organizations on the last year's activity of a Bidder.
- Power of Attorney/ Appointment of authorized person to sign the proposal and procurement contract.
- Documentary evidence of similar work experience of a Bidder in the last three (3) years.

*Information on technical specifications and required quantities shall be submitted upon written request to following address:*

The Amelioration and Water Management OJSC
*69A Moscow ave 3rd floor, AZ1012,*
*Baku, Azerbaijan*
*Head of PIU, Mr. Ayaz Gahramanov,*
*Tel: +994 12 430 06 59, 055 550 4565*
*E-mail: millisu@yahoo.com and f_a.1983@mail.ru*

2. Price quotation will be evaluated for the each item and contract will be awarded to the firm offering the lowest evaluated quote and meet the technical requirements.

3. Your price quotation in the form attached may be submitted by hand at the following address:

The Amelioration and Water Management OJSC
*69A Moscow ave 3rd floor, AZ1012,*
*Baku, Azerbaijan*
*Head of PIU, Mr. Ayaz Gahramanov,*
*Tel: +994 12 430 06 59, 055 550 4565*
*E-mail: millisu@yahoo.com and f_a.1983@mail.ru*

4. The deadline for receipt of your quotation (s) by the Purchaser at the addressed indicated in this paragraph: **June 03, 2019 at 16:00 PM.**

5. Your quotation in **English** language, should be accompanied by adequate technical documentation and catalogue(s) and other printed material or pertinent information for item quoted, including names and addresses of firms providing service facilities in Azerbaijan.

6. Your quotation(s) should be submitted as per the following instructions and in accordance with the attached Contract. The attached Terms and Conditions of Supply is an integral part of the Contract.

(i) PRICES: The prices should be quoted in AZN for the Total Cost at final destination of the vehicle is "Azersu" OJSC Training and Education Center- Hovsan Aeration Plant, which includes all taxes, customs, duties, inland transportation and insurance, loading and unloading.

(ii) EVALUATION OF QUOTATIONS: Offers determined to be substantially responsive to the technical specifications will be evaluated by comparison of the total price at final destination as per given above.

In evaluating the quotations, the Purchaser will determine for each quotation the evaluated price by adjusting the price quotation by making any correction for any arithmetical errors as follows:

(a) where there is a discrepancy between amounts in figures and in words, the amount in words will govern;
(b) where is a discrepancy between the unit rate and the line item total resulting from multiplying the unit rate by the quantity, the unit rate as quoted will govern;
(c) if a Supplier refuses to accept the correction, his quotation will be rejected.

(iii) AWARD OF PURCHASE ORDER/Contract: The award will be made to the applicant offering the lowest substantially evaluated responsive quotation and that meets the required technical and financial capabilities. The successful applicant will sign a Contract as per attached form of contract and terms and conditions of supply.

(iv) VALIDITY OF THE OFFER: Your quotation(s) should be valid for a period of forty five (45) days from the deadline for receipt of quotation(s) indicated in Paragraph 4 of this Invitation to Quote.

7. Further information can be obtained from:

*Deputy Head of PIU, Mr. Fariz Agarzayev,*
*Tel: +994 12 430 06 59, 055 550 4565*
*The Amelioration and Water Management OJSC*
*69A Moscow ave 3rd floor, AZ1012,*
*Baku, Azerbaijan*
*E-mail: nwssp2@gmail.com, millisu@yahoo.com and f_a.1983@mail.ru*

**8. Inspections and Audits**

8.1 The Supplier shall carry out all instructions of the Purchaser which comply with the applicable laws where the destination is located.

8.2 The Supplier shall permit, and shall cause its Subcontractors and consultants to permit, the Bank and/or persons appointed by the Bank to inspect the Supplier's offices and all accounts and records relating to the performance of the Contract and the submission of the bid, and to have such accounts and records audited by auditors appointed by the Bank if requested by the Bank. The Supplier's and its Subcontractors and consultants' attention is drawn to Clause 5 Fraud and Corruption of the Form of Contract, which provides, inter alia, that acts intended to materially impede the exercise of the Bank's inspection and audit rights constitute a prohibited practice subject to contract termination (as well as to a determination of ineligibility pursuant to the Bank's prevailing sanctions procedures).

“Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin 22 may 2019-cu il tarixdə 650 ədəd taxılyığan kombaynın, 100 ədəd pambıqyığan kombaynın, 500 ədəd traktorun icbari sığortalanması xidmətinin satınalınması məqsədi ilə keçirdiyi kotirovka sorğusunda “QALA SIĞORTA” ASC qalib gəlmişdir.

**Tender Komissiyası.**

## ELAN

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsi tərəfindən Füzuli rayonu Horadiz şəhərində 1 iyun - Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr olunmuş Regional Elmi-Praktiki konfransın təşkili üçün kotirovka sorğusu üsulu ilə satınalınmasını həyata keçirir. Maraqlanan təşkilatlar (012) 404-22-00 (6611) nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 29 may 2019-cu il saat 17:00 tarixinədək qəbul olunur. Ünvan: Bakı şəhəri, Yasamal rayonu, Kazım Kazımzadə küçəsi, ev 118.

## Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Sabirabad Rayon Mərkəzi Xəstəxanası 2019-cu il ərzində aşağıda göstərilən malların (iş və xidmətlərin) satınalınması məqsədi ilə əlaqədar

## KOTİROVKA SORĞUSU ELAN EDİR

1. Dəftərxana və təsərrüfat xərcləri
2. Mətbəə xərcləri
3. İdarənin xərcləri
4. Cari təmir
5. Digər nəqliyyat xidmətləri
6. Kommunal və kommunikasiya xidməti ilə bağlı digər xərclər
7. Yumşaq inventar
8. Obyektlərin əsaslı təmiri
9. İnventarın alınması
10. Avadanlığın alınması.

Kotirovka sorğuları üzrə əsas sənədlər toplusunu əlaqələndirici şəxsdən əldə etmək olar. Kotirovka sorğuları üzrə möhürlənmiş və imzalanmış təklif zərfləri 20 iyun 2019-cu il saat 15:00-dək əlaqələndirici şəxs tərəfindən qəbul ediləcək və zərflər 21 iyun 2019-cu il tarixdə saat 11:00-da Sabirabad Mərkəzi Rayon Xəstəxanasının inzibati binasında açılacaqdır.

**Ünvan:** *Sabirabad rayonu, Qalaqayın kəndi.*

**Əlaqə telefonu:** *(021) 23-5-87-16.*

**Tender Komissiyası.**

## "Kürdəmir-Pambıq" Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının nəzərinə!

2019-cu il iyun ayının 7-si saat 10:00-da cəmiyyətin səhmdarlarının növbəti ümumi yığıncağı keçiriləcəkdir.

Gündəliyə çıxarılan məsələlər:

-cəmiyyətin illik balansının müzakirəsi və təsdiqi (zərər və mənfəətin bölüşdürülməsi)

- cəmiyyətin emal sahəsi üzrə gələcək fəaliyyətinin müzakirəsi və bu barədə qərar qəbul edilməsi

- təşkilati məsələlər

- sair məsələlər.

Yığıncaq cəmiyyətin yerləşdiyi Kürdəmir şəhəri, M.Ə.Sabir küçəsi, 12 nömrəli ünvanda keçiriləcək. Səhmdarların iştirakı vacibdir.

**İdarə Heyəti ilə əlaqə telefonu:** *(050) 233-05-05.*

**Direktorlar Şurası.**

TƏKRAR

## "Bakı Metropoliteni" QSC "Elmlər Akademiyası" stansiyasının inzibati binasında Mərkəzi Dispetçer Məntəqəsinin asma-dartma tavanın, santexnika, havalandırma, kondisioner və soyutma sisteminin quraşdırılması işlərinin satınalınması üzrə

## AÇIQ TENDER ELAN EDİR

Tender 1 (bir) lot üzrə keçirilir:

LOT-1. "Bakı Metropoliteni" QSC-nin "Elmlər Akademiyası" stansiyasının inzibati binasında Mərkəzi Dispetçer Məntəqəsinin asma-dartma tavanının, santexnika, havalandırma, kondisioner və soyutma sisteminin quraşdırılması işlərinin satınalınması

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi 16-dən, (Əlaqələndirici şəxs: Rauf Yusifov, telefon: 490-00-91) ala bilərlər.

İştirak haqqı 1 lot üzrə - 2000 manat

*Hesabın adı: BAKI METROPOLİTENİ QSC*
*Hesab nömrəsi (İBAN):*
*AZ98AZRT38050019440010268002 AZN*
*VÖEN 1402871431*
*Bankın adı : AZƏR TÜRK BANK ASC (Mərkəz Filialı)*
*Kod: 501361*
*VÖEN: 9900006111*
*Müxbir hesabı: AZ02NABZ01350100000000022944*
*SWİFT BİK: AZRTAZ22*

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün yazılı müraciət;*

*-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*-tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*

*-tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 90 bank günü qüvvədə olmalıdır).*

*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*

*-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*

*-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*

*-İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

*-Metropolitendə analoji iş təcrübəsinin olması zəruridir*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 18 iyun 2019-cu il saat 18:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 27 iyun 2019-cu il saat 17:00-a qədər, Bakı şəhəri, M.Rəfili küçəsi 16, ünvanına "İcraya Nəzarət, Kargüzarlıq və Təsərrüfat İşləri" şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 28 iyun 2019-cu il saat 15:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**"BAKI METROPOLİTENİ" QSC TENDER KOMİSSİYASI.**

## ELAN

**Detal Alüminium MMC-nin kreditorlarının nəzərinə!**

Detal Alüminium MMC-nin (VÖEN N2300812001, hüquqi ünvan: Gəncə şəhəri, Yevlax şosesi-53) iflas edilməsinə dair işə 29 may 2019-cu il tarixində, Gəncə Şəhəri İnzibati-İqtisad Məhkəməsinin binasında Gəncə şəhəri, Heydər Əliyev prospekti105 ünvanında baxılacaqdır.

**Detal Alüminium MMC-nin rəhbərliyi.**

## BİLDİRİŞ

Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti 30 noyabr 2018-ci il tarixli elanına əsasən 18 yanvar 2019-cu il tarixdə Lot-5 - "B-92" layihəli 704 saylı Sərhəd Gözətçi Gəmisinin cari təmiri işlərinin satınalınması üzrə keçirilmiş açıq tenderin nəticələrini qiymətləndirmiş, müvafiq olaraq "Palladium Defence and Security Solutions" MMC-nin tender təklifi aksept edilmişdir. Nəticədə tender proseduruna əsasən şirkətlə satınalma müqaviləsi imzalanmışdır.

**Dövlət Sərhəd Xidmətinin Tender Komissiyası.**

## BİLDİRİŞ

### Bərdə Regional Mədəniyyət İdarəsi

Bərdə Regional Mədəniyyət İdarəsinin 15 aprel 2019-cu il tarixində yanacaq və sürtkü materiallarının alınması üzrə keçirilmiş kotirovka sorğusu ləğv olunur.

## BİLDİRİŞ

"Azəralüminium" MMC tərəfindən 7 mart 2019-cu il tarixində elanı verilmiş 15 ton Butil və 20000 ədəd butil kağızının alınması üçün keçirilən açıq tenderin qalibi Erpasan Kalıp Plastik Kimya İnşaat Nak. San. Tic. A.Ş.-i olmuşdur. Erpasan Kalıp Plastik Kimya İnşaat Nak. San. Tic. A.Ş.-ilə 61,050.00 avro məbləğində müqavilə bağlanmışdır.

## BİLDİRİŞ

Azərbaycan Dövlət Neft və Sənaye Universitetində 07 may 2019-cu il tarixində keçirilmiş "Dəmir relslər üzərində hərəkət edən elektron mobil stellaj və inventarların alınması" açıq tenderdə "İnpeks.N MMC" qalib olmuşdur. 08 may 2019-cu il tarixində keçirilmiş açıq tenderdə "Dəftərxana və təsərrüfat xərcləri" maddəsində "Solution MMC", "İdarənin xərcləri" maddəsində "Qalaktika-KM", "Abadlaşdırma xidmətləri" maddəsində "Azərtəmirgeotex MMC", 14 may 2019-cu il tarixində keçirilmiş açıq tenderdə "Digər maşın və avadanlıqlar" maddəsi ilə "İnpeks .N MMC" qalib olmuşdur.

## Gəncə şəhəri, Kəpəz rayonu, Kəpəz bələdiyyəsi, Şah İsmayıl Xətai prospekti, 63/65 nömrəli yaşayış binasının fasad hissəsində əsaslı təmir işlərinin görülməsi üçün

## KOTİROVKA SORĞUSU ELAN EDİR

Ünvan: Gəncə şəhəri, Ş.İ.Xətai 101, Kəpəz Rayon İcra Hakimiyyətinin inzibati binası. Sənədlər 04 iyun 2019-cu il saat 17:00-a kimi qəbul edilir.

DTXK-nın Siyəzən Rayon Şöbəsi tərəfindən Sədau kənd sakini Bağırov Rafiq Ağanur oğlunun adına verilmiş JN-128 kod (30503018) saylı torpağa mülkiyyət hüququna dair Dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Milli Elmlər Akademiyası Radiasiya Problemləri İnstitutunun nəşr etdiyi "Journal of Radiation Researches" jurnalının Ədliyyə Nazirliyi tərəfindən qeydiyyatını təsdiq edən sənəd (14.02.2014-cü ildə 3858 sayla qeydiyyata alınmışdır) itdiyi üçün etibarsız sayılır.

Bakı Dövlət Universitetinin biologiya fakültəsinin 2-ci kurs tələbəsi Quliyeva Lətafət Akif qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Əmirov Elməddin Zahir oğlunun adına Hüquqların Dövlət Qeydiyyatı haqqında Daşınmaz Əmlakın Dövlət Reyestri tərəfindən 13.0 ha torpaq sahəsinə verilən MA 0108690 saylı çıxarış itdiyi üçün etibarsız sayılır. Ünvan: Salyan rayonu, 1 Varli kəndi

Əmirov Elməddin Zahir oğlunun adına Hüquqların Dövlət Qeydiyyatı haqqında Daşınmaz Əmlakın Dövlət Reyestri tərəfindən 15.8 ha torpaq sahəsinə verilən MA 0108689 saylı çıxarış itdiyi üçün etibarsız sayılır. Ünvan: Salyan rayonu, 1 Varli kəndi

Əmirov Elməddin Zahir oğlunun adına Hüquqların Dövlət Qeydiyyatı haqqında Daşınmaz Əmlakın Dövlət Reyestri tərəfindən 12.0 ha torpaq sahəsinə verilən MA 0108692 saylı çıxarış itdiyi üçün etibarsız sayılır. Ünvan: Salyan rayonu, 1 Varli kəndi

Əmirov Elməddin Zahir oğlunun adına Hüquqların Dövlət Qeydiyyatı haqqında Daşınmaz Əmlakın Dövlət Reyestri tərəfindən 9.20 ha torpaq sahəsinə verilən MA 0108691 saylı çıxarış itdiyi üçün etibarsız sayılır. Ünvan: Salyan rayonu, 1 Varli kəndi.

Quba rayonunun Qəcər-Zeyid kənd sakini Məmmədyarova Xumar Əhməd qızının, Məmmədyarov Samir Arif oğlunun, Məmmədyarov Seymur Arif oğlunun, Məmmədyarov Arif Həmdulla oğlunun, Məmmədyarov Sənan Arif oğlunun adlarına Quba Rayon Aqrar İslahat Komissiyasının 24 fevral 2000-ci il tarixli, 02 saylı qərarı ilə 0,10 hektar torpaq sahəsi üçün verilmiş Şəhadətnamə (JN: 030F, kod: 30304058) itdiyi üçün etibarsız sayılır.

Müslümov Rövşən Pərvaz oğlunun adına Neftçala r-nun Hərbi Komissarlığı tərəfindən 07.10.2000-ci ildə verilən A 471882 Əfqan Veteran vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Cəfərov Səməd Abdulsəməd oğlunun adına verilmiş Bakı şəhəri, U.Ələkbərov küçəsi 16 saylı evin (Seriya ÖM N 237371) qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Quba rayonu, Digah kənd sakini Güliyev Fizuli Rəhim oğlunun adına verilmiş torpağa mülkiyyət hüququna dair Dövlət Aktı (JN: 133, kod: 30307038) itdiyi üçün etibarsız sayılır.

İbrahimov Yadigar Vəli oğlunun adına Abşeron rayonu, Mehdiabad qəsəbəsində yerləşən (3 sot torpaq sahəsi, qeydiyyat N: 1617002933, reyestr N: 308013106171) torpaq sahəsinin çıxarışı itdiyi üçün etibarsız sayılır.

## Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Sabirabad Rayon Mərkəzi Xəstəxanası 2019-cu il üçün tələb olunan malların (iş və xidmətlərin) satınalınması məqsədi ilə əlaqədar

## AÇIQ TENDER ELAN EDİR

**Tender 1 (bir) lot üzrə keçirilir:**

**Digər maşın və avadanlıqların satınalınması.**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 40 manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Sabirabad rayonu, Qalaqayın kəndi (Sabirabad Rayon Mərkəzi Xəstəxanası) ünvanda əlaqələndirici şəxs: Ü.Əliyev, telefon: (021)23- 5-87-16 ala bilərlər.

İştirakçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər.

*Təşkilat: Sabirabad YXO*
*Hesab: AZ46AİİB32051019444400201144*
*VÖEN: 6800086231*
*Bank: "Kapital Bank" Sabirabad rayon filialı*
*Kodu: 200446*
*VÖEN: 9900003611*
*Müxbir hesabı:*
*AZ37NABZ01350100000000001944*
*S.W.İ.F.T. BİK — AİİBAZ2X*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*— tenderdə iştirak etmək üçün yazılı müraciət;*

*— tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi (əsli);*

*— tender təklifi (zərflərin açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır);*

*— tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*

*— Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*

*— iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*

*— iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*

*— iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitlər (notariusdan təşkil edilmiş surəti);*

*— iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Tender proseduru "Dövlət Satınalmaları haqqında" qanunauyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 16 iyul 2019-cu il saat 15:00-a qədər, bir nüsxədə tender təklifi və bank zəmanətini isə bağlanmış və möhürlənmiş ikiqat zərfdə iki nüsxədə (əsli və surəti) 24 iyul 2019-cu il saat 15:00-a qədər Sabirabad Mərkəzi Rayon Xəstəxanasına (ünvan: Sabirabad rayonu, Qalaqayın kəndi) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 25 iyul 2019-cu il tarixdə saat 11:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri zərflərin açılışında iştirak edə bilərlər.

**Tender Komissiyası.**

## Sumqayıt Şəhər İcra Hakimiyyəti başçısının Corat Qəsəbə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyi 2019-cu ildə qəsəbədə aparılacaq abadlıq-asfaltlama işləri üçün

## AÇIQ TENDER ELAN EDİR

**Tender 1 (bir) Lot üzrə keçirilir:**

**LOT-1.** Qəsəbənin, küçə və yolların abadlıq-asfaltlama işləri.

İşlərin yerinə yetirilməsi ilin sonunadək nəzərdə tutulmuşdur.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat zərfdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları yüksək kadr potensialına, lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar və işin keyfiyyətli yerinə yetirilməsinə zəmanət verməlidirlər.

Tenderdə iştirak etmək istəyənlər Lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu ala bilərlər.

**Əlaqələndirici şəxs: Şəfiqə Mürsəlova (tel.: 65-6-93-39)**

**LOT - 1. 315 (üç yüz on beş) manat iştirak haqqı**

Təşkilat: Sumqayıt Şəhər İcra Hakimiyyəti başçısının Corat Qəsəbə İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyi.

*Hesab: AZ57CTRE00000000000002516633*
*VÖEN: 2900273511*
*Bank: Dövlət Xəzinədarlığı Agentliyi*
*Kod: 210005*
*VÖEN: 1401555071*
*M/h: AZ41NABZO1360100000000003944*
*S.W.İ.F.T.BİK: CTREAZ22*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderdə iştirak etmək üçün iddiaçılar 5 iyul 2019-cu il saat 18:00-a qədər aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün yazılı müraciət;*

*-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*-tender təklifi (zərflər açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*

*-tender təklifləri dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*

*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;*

*-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*

*-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*

*-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifi Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tender təkliflərini 15 iyul 2019-cu il saat 18:00-a qədər, Sumqayıt ŞİH-in Corat qəsəbəsi üzrə nümayəndəliyinə (ünvan: Sumqayıt şəhəri, Corat qəsəbəsi, Sülh küçəsi) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 16 iyul 2019-cu il saat 11:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

TƏKRAR

## NƏRİMANOV RAYON MƏNZİL KOMMUNAL TƏSƏRRÜFATI BİRLİYİ

## AÇIQ TENDER ELAN EDİR

**Tender 1 (bir) lot üzrə keçirilir:**

**LOT-5. Abadlıq işləri**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər lotlar üzrə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu ala bilərlər.

**İştirak haqqı - 200 AZN**

**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Dəmirçizadə küçəsi 22**

**Əlaqələndirici şəxs: Cahangirov Telman.**

**Tel.: 055-719-81-30**

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:

*VÖEN: 1500376341*
*Hesab: AZ17İBAZ38060019449784231206*
*Adı: ABB Nərimanov filialı*
*Kodu: 805540*
*VÖEN: 9900001881*
*Müxbir hesab:*
*AZ03NABZ01350100000000002944*
*S.W.I.F.T. İBAZAZ2X*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*—tenderdə iştirak etmək üçün ərizə;*

*—tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*—tender təklifi (zərflərin açıldığı gündən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*

*—tender təklifi qiymətinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı gündən ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);*

*—Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*

*—iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*

*—iddiaçının son iki il ərzində maliyyə vəziyyəti (dövriyyəsi) haqqında bank arayışı;*

*—iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri, mənfəət vergisinin bəyannaməsi;*

*—iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatı, tikinti-quraşdırma və xüsusi torpaq işləri ilə bağlı lisenziyasının vacibliyi.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri tender təklifi və bank zəmanəti istisna olmaqla 25 iyun 2019-cu il saat 17:00-dək, iş qrafiki, tender təklifi və bank zəmanətlərini isə möhürlənmiş ikiqat zərfdə 4 iyul 2019-cu il saat 17:00-a qədər təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri 5 iyul 2019-cu il tarixdə, saat 12:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

TƏKRAR

## Bakı Turizm Peşə Məktəbi

## AÇIQ TENDER ELAN EDİR

**Tender 2 (iki) lot üzrə keçirilir:**

**Lot-1.** İnventarın alınması

**Lot-2.** Cari təmir

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər lotlar üzrə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu ala bilərlər.

**Ünvan: Bakı şəhəri, Binəqədi rayonu, 8 mkr. Cəfər Xəndan küçəsi 17.**

**Hər lot üzrə iştirak haqqı: 100 (yüz) manat**

**Əlaqələndirici şəxs: Zahid Əsgər oğlu Əliyev**

**Telefon: 561-26-57; (051) 933-21-37**

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:

*A1. Emitent (ödəyən) bank*
*Adı: Dövlət Xəzinədarlığı Agentliyi*
*Kodu: 210005*
*VÖEN: 1401555071*
*Müx.hes. AZ41NABZ01360100000000003944*
*S.W.İ.F.T BİK CTREAZ22*
*A2. Ödəyən müştəri*
*Adı: Bakı Turizm Peşə Məktəbi*
*Hes. N AZ06CTRE00000000000008497601*
*VÖEN: 1002543031*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*—tenderdə iştirak etmək üçün ərizə;*

*—tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*—tender təklifi (zərflərin açıldığı gündən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*

*—tender təklifi qiymətinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı gündən ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);*

*—Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*

*—iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*

*—iddiaçının son iki il ərzində maliyyə vəziyyəti (dövriyyəsi) haqqında bank arayışı;*

*—iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri, mənfəət vergisinin bəyannaməsi;*

*—iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatı, tikinti-quraşdırma və xüsusi torpaq işləri ilə bağlı lisenziyasının vacibliyi.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri tender təklifi və bank zəmanəti istisna olmaqla 25 iyun 2019-cu il saat 17:00-dək, iş qrafiki, tender təklifi və bank zəmanətlərini isə möhürlənmiş ikiqat zərfdə 4 iyul 2019-cu il saat 17:00-a qədər təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri 5 iyul 2019-cu il tarixdə, saat 12:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

## ALLAH RƏHMƏT ELƏSİN

**Göygöl Rayon İcra Hakimiyyətinin başçısı Arif Seyidov Əməkdar jurnalist Əhməd İsayevə, qardaşı HÜSEYİN ƏHMƏDOVUN vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.**

**Bakı Dövlət Universitetinin fizika fakültəsinin əməkdaşları fiziki elektronika kafedrasının sabiq dosenti KAMİL MƏMMƏD oğlu DAŞDƏMİROVUN vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.**

**Bakı Dövlət Universitetinin fizika fakültəsinin fiziki elektronika kafedrasının kollektivi kafedranın sabiq dosenti KAMİL MƏMMƏD oğlu DAŞDƏMİROVUN vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.**

**Göygöl Suvarma Sistemlər İdarəsinin kollektivi və idarənin rəisi İlqar Məhərrəmov Əməkdar jurnalist Əhməd İsayevə, qardaşı HÜSEYİN ƏHMƏDOVUN vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

**AMEA Respublika Seysmoloji Xidmət Mərkəzinin baş direktoru, professor Q.C.Yetirmişli Lerik RİH başçısı Rövşən Bağırova, əzizi ASLAN BAĞIROVUN vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.**

Baş redaktor
Teymur ƏHMƏDOV

● Redaksiyanın telefonları:

İqtisadiyyat və islahatlar redaksiyası: **539-95-51;**
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: **538-55-20;**
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: **539-26-18;**
Humanitar siyasət redaksiyası: **538-25-70;**
Xəbərlər redaksiyası: **538-61-02;**
İctimai rəy və sosial problemlər redaksiyası: **539-95-51; 538-43-41 tel/faks;**
Qəbul otağı: **538-25-70;**
Katiblik: **538-25-70;**
Reklam və elan xidməti: **441-20-23.**



● Redaksiyanın ünvanı:

AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
**E-mail: resp@azdata.net**
**www.respublica-news.az**
*"Respublika" qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.*
Qeydiyyat № 7.

İndeks 0240
Tiraj 4292
Sifariş 023
Qəzetin satış qiyməti 40 qəpik

Məsul növbətçi
Ataş CƏBRAYILOV

● Çapa imzalanmışdır
24.05.2019